Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 248 (7975) ŞƏNBƏ, 3 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# İlham Əliyevin inkişaf strategiyası qlobal miqyasda təqdir olunur

## “Doing Business 2019” hesabatı Azərbaycanda həyata keçirilən islahatlara verilən yüksək beynəlxalq qiymətdir

**Bir neçə il öncə neftin qiymətinin kəskin ucuzlaşmasının bir sıra ölkələrin iqtisadiyyatına ciddi təsir göstərməsinə baxmayaraq, Azərbaycan qlobal maliyyə-iqtisadi böhrandan minimal çətinliklə çıxmağı bacardı.**

Bunun da əsas səbəbi ölkədə vaxtında tətbiq olunan qabaqlayıcı tədbirlər, ən əsası, yeni iqtisadi şəraitə uyğun olaraq başladılan iqtisadi islahatlar idi. Belə ki, bu islahatlar qeyri-neft sektorunun inkişafı məqsədilə bir sahə ilə kifayətlənməyərək kompleks tədbirlərin görülməsini əhatə etdi.

### Son 2 ildə qeyri-neft sektoru artım nümayiş etdirir

Reallıq ondan ibarət idi ki, ölkə rəhbərliyinin 2016-cı ilin ilk rübündən həyata keçirdiyi operativ tədbirlər və dərin islahatlar nəticəsində bütün iqtisadi risklər minimum səviyyəyə endirildi. Bu zaman qarşıya qoyulan ən əsas vəzifə yeni çağırışlardan irəli gələrək qeyri-neft sektorundakı mövcud potensialın hərəkətə gətirilməsi, bu sahədə dinamik inkişafa nail olmaq üçün yeni iqtisadi islahatların həyata keçirilməsi idi. Bu məqsədlə qeyri-neft istehsalının stimullaşdırılması, sahibkarlıq fəaliyyəti üçün daha münbit şəraitin yaradılması, o cümlədən kənd təsərrüfatında ölkəmizə valyuta gətirə biləcək sahələrin inkişafı üçün təxirəsalınmaz addımlar atıldı. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar, Milli Məclisin, Nazirlər Kabinetinin qəbul etdiyi müvafiq qanun və qərarlar yeni iqtisadi islahatların hüquqi bazasını təşkil etdi. Reallıq göstərir ki, aparılan iqtisadi islahatlar nəticəsində son illər ərzində bu sahədə mühüm nailiyyətlər əldə olunub, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, rəqabətqabiliyyətli malların istehsalı genişlənib.

Bütün bunlarla yanaşı, tikinti icazələri sahəsində “bir pəncərə”nin fəaliyyəti, onlayn müraciətin tətbiqi və “ASAN Kommunal”ın texniki şərtləri təqdim etməsi nəticəsində prosedurların sayı azaldıldı. Elektrikə çıxış üçün prosedurlar son bir ildə 7-dən 2-yə, günlərin sayı isə 69-dan 20-yə qədər endirildi. Əmlakın qeydiyyatı prosesi sürətləndirildi. Notariuslar Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti ilə inteqrasiya olundu. Son bir ildə vergilərin ödənilməsi sahəsində də irəliləyişlər var: ƏDV-nin geri qaytarılması müddəti 45 gündən 20 günə endirilib, kameral yoxlamalar üçün isə 30 gün vaxt verilib. Bütün bunlarla yanaşı, gömrükdə “yaşıl dəhliz” və dünyada ilk dəfə olaraq Azərbaycanda onlayn vahid ixrac ərizəsinin tətbiqi mühüm “Doing Business” islahatlarıdır.

2018-ci ilin ötən dövrünün makroiqtisadi reallıqları yeni iqtisadi islahatların mühüm nəticəsindən xəbər verir. Belə ki, bu dövrdə ölkənin əsas makroiqtisadi göstəriciləri üzrə inkişaf müşahidə edilib, 50,5 milyard manat dəyərində və ya əvvəlki illə müqayisədə real ifadədə 0,7 faiz çox ÜDM istehsal olunub. ÜDM-də iqtisadiyyatın qeyri-neft sektorunda istehsal edilmiş əlavə dəyər isə ötən ilin eyni dövrünün göstəriciləri ilə müqayisədə 0,9 faiz çox olub.

### Dünyanın ən çox islahat aparan ölkəsi

Bu il oktyabrın 31-də Dünya Bankı tərəfindən açıqlanan “Doing Business 2019” hesabatı Azərbaycanın iqtisadi sferadakı uğurlarının beynəlxalq miqyasda növbəti etirafıdır. Respublikada həyata keçirilən islahatlar “Doing Business 2019” hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, hesabatda Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Hesabata əsasən ölkəmiz “Tikinti üçün icazələrin alınması” və “Kreditlərin alınması” indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. “Kiçik investorların maraqlarının qorunması” indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, “Biznesə başlama” (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə “Doing Business 2019” hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qiymətləndirilib.

Ardı 7-ci səh.

# Avropa Yenidənqurma və İnkişaf Bankından İlham Əliyevin qlobal layihəsinə böyük dəstək

## Bank TAP üçün 1 milyard avroluq maliyyələşdirməni təmin edəcək

**Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) “Transadriatik” (TAP) boru kəməri layihəsi üçün 1 milyard avroluq maliyyələşdirməni təmin edəcək.**




AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, bu barədə EBRD-nin enerji və təbii sərvətlər üzrə direktoru Nandita Parşad deyib.

“TAP boru kəməri təbii qazı Albaniya, Yunanıstan və İtaliyaya nəql edəcək. Bu da həmin ölkələrdə yeni infrastruktur sərmayələrinə gətirib çıxaracaq. TAP, eyni zamanda, qazın əks istiqamətdə də axınını təmin edəcək formada dizayn edilib. Bank TAP-a ayırdığı 500 milyon avroluq krediti bu ilin sonuna kimi yekunlaşdıracaq. Bundan başqa, EBRD vasitəsilə digər maliyyə qurumlarından da 500 milyon avro məbləğində maliyyələşdirmə nəzərdə tutulur. Bununla da TAP üçün 1 milyard avroluq maliyyələşdirmə təmin olunacaq”, - deyə o əlavə edib.

Qeyd edək ki, TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 80 faizdən çoxu icra olunub. Sentyabrın əvvəlinə TAP-ın Yunanıstandan keçəcək 550 kilometrlik hissəsində marşrut xətti üzrə 540 kilometr ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Təqribən 538 kilometr boru xətt boyunca düzülüb və qaynaq edilib. 504 kilometr boru torpağa basdırılıb və təxminən 430 kilometr ərazi bərpa olunub. TAP-ın Albaniyadan keçən 215 kilometrlik hissəsinin, demək olar ki, hamısı təmizlənib və qiymətləndirilib, həmçinin bütün borular marşrut xətti boyunca düzülüb. Boruların 205 kilometri qaynaqlanıb və onların təxminən 189 kilometri torpağa basdırılıb.

Ardı 4-cü səh.




## Əli HƏSƏNOV: “Azərbaycan Cənubi Qafqazda siyasi, iqtisadi, energetika baxımından lider ölkədir”

**Paraqvayın geniş tamaşaçı auditoriyasına malik olan SNT televiziya kanalı Azərbaycan haqqında reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda ispandilli tamaşaçılara Azərbaycan haqqında ətraflı məlumat verilir.**

Reportajın yayımlandığı verilişdə çıxış edən müəllif Karlos Troçe əvvəlcə Azərbaycana səfərinin təəssüratlarından danışır. O bildirir ki, Azərbaycan Xəzər dənizinin sahilində, Avropa ilə Asiyanın kəsişməsində yerləşən, enerji resursları ilə zəngin, uzaq məsafədə yerləşməsinə baxmayaraq, Latın Amerikası dövlətləri, xüsusilə də Paraqvay ilə əlaqələrin genişləndirilməsində maraqlı olan bir ölkədir. Azərbaycanın Argentinada səfirliyi fəaliyyət göstərir, gələcəkdə Paraqvayda konsulluğunun açılması nəzərdə tutulur. Son vaxtlar Azərbaycan ilə Paraqvay arasında əlaqələr intensivləşir. Hər iki ölkənin bir-birinə diqqətini cəlb edən məqamlar var.

Ardı 4-cü səh.

DOING BUSINESS 2019

## Azərbaycan “Doing Business 2019” hesabatına əsasən, daşınmaz əmlakın qeydiyyatında 4 pillə irəliləyib

**Azərbaycan “Doing Business 2019” hesabatına əsasən daşınmaz əmlakın qeydiyyatında 4 pillə irəliləyib.**

AZƏRTAC bildirir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində ölkəmiz “Doing Business 2019” hesabatında müxtəlif parametrlər üzrə, o cümlədən əmlakın qeydiyyatı sahəsində xeyli irəliləyib. Belə ki, əmlakın qeydiyyatının sadəliyinə görə Azərbaycan ötən illə müqayisədə daha 4 pillə irəliləyərək 190 ölkə arasında 17-ci yerdə qərarlaşıb. Bu göstərici ilə isə ölkəmiz Polşa, Rumıniya, Bolqarıstan, digər Avropa və Mərkəzi Asiya ölkələrini qabaqlayıb.

Ardı 7-ci səh.

# Əhalinin sosial müdafiəsi məşğulluğun təminatından keçir

## Sosial rifahın təminatında isə sosial infrastruktur önəmli rol oynayır

**Dövlətə etimad əhalinin sosial müdafiəsi ilə sıx bağlı olduğu üçün bütün ölkələrdə bu sahə həmişə xüsusi diqqət mərkəzində saxlanılır.**

Azərbaycanda da həyata keçirilən iqtisadi islahatlar zamanı əhalinin sosial müdafiəsinin təminatı əsas hədəf kimi götürülür. Yəni yeni istehsal sahələrinin açılmasına əhalinin məşğulluq probleminin həlli, müxtəlif sosial infrastrukturun yaradılmasına insanların rahatlığının təminatı kimi baxılır. Odur ki, aparılan iqtisadi islahatlar nəticəsində ölkədə yeni iş yerləri açılır, məktəb və xəstəxanalar tikilir, yollar salınır, qaz, su və işıq xətləri çəkilir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında sosial sahələrin inkişafını, həmçinin bu sahədə mövcud olan nöqsanların aradan qaldırılmasının vacibliyini qeyd edərək demişdir: “Sosial sahədə ciddi islahatlar aparılır. Nazirliyin yeni rəhbərliyinə mənim tərəfimdən çox ciddi tapşırıqlar verildi ki, sosial ədaləti pozanlara qarşı çox ciddi tədbirlər görülsün. Bu sahədə rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə çox ciddi aparılmalıdır və hazırda aparılır, şəffaflıq təmin edilir, bu sahədə yol verilmiş pozuntular aradan qaldırılır”. Həmin iclasda ölkədə hər il 6-7 min iş yeri yaradılmasının vacibliyini vurğulayan dövlət başçısı bu hədəfə çatmaqda özünüməşğulluq proqramının xüsusilə bölgələrdə işsizliyin, yoxsulluğun aradan qaldırılması üçün çox önəmli vasitə, alət olduğunu bildirmişdir.

Ardı 7-ci səh.



# Erməni KİV: “İlham Əliyev Ermənistanı təcrid və bütün imkanlardan məhrum edib”

## Ermənistan mətbuatı və ekspertləri işğalçı ölkənin regional münasibətlərdə də Azərbaycan Prezidenti tərəfindən iflasa uğradıldığını açıq şəkildə bəyan edirlər

**Həyata keçirdiyi işğal siyasəti bu gün Ermənistanın regional təcridinin daha da dərinləşməsi ilə müşayiət edilməkdədir. Burada hakimiyyətdə kimin olmasından asılı olmayaraq, ölkənin düşdüyü təcrid vəziyyətindən xilas olmaq istiqamətində edilən cəhdlər birmənalı şəkildə baş tutmur.**

Ötən zaman göstərir ki, Ermənistanın işğal siyasətinə son qoymaması və Azərbaycanın ərazi bütövlüyünü tanımadığı təqdirdə onun iflası qaçılmazdır. Çünki Ermənistanın təcriddən xilas olması yalnız Azərbaycandan asılıdır. Əldə edilən nailiyyətlərdən məharətlə istifadə edən Prezident İlham Əliyev bu gün işğalçı Ermənistana həm diplomatiya müstəvisində böyük zərbələr vurur, həm də bu ölkəni təcrid vəziyyətinə salmaqla onun sosial-iqtisadi vəziyyətini ağırlaşdırır.

### Beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyir

Region dövlətləri və beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi də Ermənistanın işğal siyasətindən dünyada artan narazılığın real göstəricisidir. Belə vəziyyətdə, aydındır ki, Ermənistan bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir. Bu məqam Azərbaycan, İran və Türkiyə xarici işlər nazirlərinin VI üçtərəfli görüşü və nəticədə qəbul edilən İstanbul Bəyannaməsi fonunda özünü bir daha qabarıq surətdə göstərdi.

Xatırladaq ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun dəvəti, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin iştirakı ilə üç dövlətin xarici siyasət idarələrinin rəhbərlərinin altıncı üçtərəfli görüşü oktyabrın 30-da İstanbulda keçirilib.

Ardı 4-cü səh.

# Sülhün nəbzi Bakıda döyünür

**“Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumu bir daha Azərbaycanın sülhə və əmin-amanlığa sadiq olduğunu, ölkəmizin planetar dəyərlərə yeni töhfələr vermək gücünü bütün dünyaya nümayiş etdirdi. 580-dən çox xarici qonağın iştirak etdiyi Bakı Beynəlxalq Humanitar Forumu qısa müddət ərzində dünyada hamının diqqətini çəkən çox önəmli beynəlxalq tədbirə çevrilmişdir.**




Planeti bürüyən münaqişələr, sonu görünməyən üzücü müharibələr, sayı milyonlarla ölçülən qaçqın dalğaları, od-alovun içinə atılan və müharibələrdə qırılan dinc əhali XXI əsrdə müharibələrin girdabına sürükləndiyini, beynəlxalq hüquq normalarının dəyərdən düşdüyünü və dövlətlərarası münasibətlərin ikili standartlarla üzləşdiyini ortaya qoyur. Bəşər tarixində belə gərgin situasiyalar qəddarlığın, hətta faşizmin çiçəklənməsinə rəvac verir. Bu baxımdan dünyəvi dəyərlərin yenilənməsi, yeni humanitar ənənələrin müzakirəsi və köhnələrinin bərpa edilməsi zərurətə çevrilir.

Humanitar əməkdaşlığa dair çoxsaylı mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edən Azərbaycanın belə vacib tarixi məqamda öz sözünü deməyə, yeni ideyaların çələngini dünyaya təqdim etməyə mənəvi haqqı var. BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumuna, Dünya dinləri liderlərinin Zirvə görüşünə və 4 dəfə Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi edən Bakının Azərbaycan paytaxtından dünyaya yeni sülh ideyasını, dayanıqlı sabitlik modelini təqdim etməyə həm də mənəvi haqqı var.

Ardı 7-ci səh.

## V.Q.Behbudovun “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kino sənətinin inkişafında xidmətlərinə görə Vaqif Qulam oğlu Behbudov “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin institusional fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər və “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 225 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

“Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1226; 2018, № 4, maddə 720) aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci hissədə “rayon və şəhər idarələrinin” sözləri “dövlət aqrar inkişaf mərkəzlərinin” sözləri ilə əvəz edilsin.
2. Həmin sərəncamla təsdiq edilmiş “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturu”nun 7-ci hissəsində “rayon və şəhər idarələri” sözləri “dövlət aqrar inkişaf mərkəzləri” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin institusional fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər və “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və onun yanında yaradılmış dövlət xidmətləri haqqında əsasnamələrin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 225 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 664, № 9, maddə 1486) ilə təsdiq edilmiş “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın 3.1.4-cü yarımbəndinin birinci cümləsində “rayon və şəhər idarələri” sözləri “dövlət aqrar inkişaf mərkəzləri” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Abdinli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycanın Baş naziri Novruz Məmmədov qazaxıstanlı həmkarı Bakıtjan Saqintayevlə görüşüb

Baş nazir Novruz Məmmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyi (MDB) Hökumət Başçıları Şurasının növbəti iclasında iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astanaya gəlib. Səfər çərçivəsində Baş nazir Novruz Məmmədovun noyabrın 2-də qazaxıstanlı həmkarı Bakıtjan Saqintayevlə görüşü olub.





AZƏRTAC xəbər verir ki, görüş zamanı ikitərəfli əməkdaşlıq münasibətlərinin inkişafı, aktual regional və beynəlxalq məsələlər müzakirə edilib.

Qazaxıstanın Baş naziri Bakıtjan Saqintayev bildirib ki, MDB Hökumət Başçıları Şurası regional və beynəlxalq məsələlərin müzakirəsi üçün əlverişli əməkdaşlıq platforması olmaqla yanaşı, müasir dövrün çağırışlarına uyğun birgə tədbirlərin həyata keçirilməsinə də öz töhfəsini verir.

Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb və bunun üçün geniş imkanların olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, ölkələrimizi tarixi dostluq, qardaşlıq telləri bağlayır. Xalqlarımız eyni köklərə, mədəniyyət və mənəviyyata malikdir. Azərbaycan ilə Qazaxıstanın strateji tərəfdaşlar olduğunu bildirən Baş nazir Novruz Məmmədov deyib: “Bizim ölkələrin liderləri - ulu öndər Heydər Əliyev və Nursultan Nazarbayev hələ Sovet dövründə iki dost, qardaş xalqın rəhbərləri kimi sıx əməkdaşlıq şəraitində çalışıblar. Bu ənənələr müstəqillik illərində daha da inkişaf etdirilib. Azərbaycan Prezidenti İlham Əliyev də Qazaxıstanla ikitərəfli faydalı əməkdaşlığı xarici siyasətimizin prioritetləri sırasında hər zaman vurğulayıb”.

Görüşdə bildirilib ki, Azərbaycan və Qazaxıstan Çindən Avropaya qədər uzanan beynəlxalq nəqliyyat dəhlizinin üzərində yerləşir. Hər iki ölkə bu tranzit xəttin imkanlarından maksimum dərəcədə faydalanmaqda maraqlıdır. Baş nazirlər bu baxımdan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Yeni Bakı Beynəlxalq Dəniz Limanının, Qazaxıstanın qərb və şərq sərhədlərini birləşdirən dəmir yolu xətlərinin və Kurık dəniz limanının əhəmiyyətini qeyd ediblər.

# Astanada MDB Hökumət Başçıları Şurasının iclası keçirilib





Noyabrın 2-də Qazaxıstanın paytaxtı Astanada MDB Hökumət Başçıları Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə nümayəndə heyəti iclasda iştirak edib.

Ənənəvi olaraq iclas iki formatda keçirilib. Nümayəndə heyətləri rəhbərlərinin məhdud tərkibdə görüşündə üzv ölkələr arasında əməkdaşlığın aktual məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb, iqtisadi, maliyyə və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində qarşıda duran vəzifələr müzakirə edilib.

Azərbaycanın Baş naziri Novruz Məmmədov məhdud tərkibdə iclasda çıxış edib.

İclas iştirakçılarını Azərbaycan hökuməti adından salamlayan Novruz Məmmədov bildirib ki, MDB bu qurumun üzv dövlətlərinin hərtərəfli əməkdaşlığı, həm regional, həm də beynəlxalq gündəlikdəki aktual məsələlərin müzakirəsi və bu məsələlər üzrə qarşılıqlı fəaliyyət üçün mühüm platformadır. MDB formatında daimi sıx əlaqələrin və ikitərəfli əməkdaşlığın səviyyəsi ölkələrimiz arasında qarşılıqlı anlaşmaya və etimadın möhkəmlənməsinə şərait yaradır, Birliyin inkişafında mühüm rol oynayır.

İclasın gündəliyinə daxil edilmiş məsələlərin əhəmiyyətinə toxunan Novruz Məmmədov qeyd edib ki, Azərbaycanın təşəbbüsü ilə başlanan qlobal enerji və nəqliyyat layihələrinin reallaşdırılması həm bizim ölkənin, həm də bütövlükdə regionun infrastrukturunun modernləşdirilməsinə mühüm töhfə verməkdə davam edir. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşən Azərbaycan regionda mühüm tranzit rolu oynayır. Bakıda yeni Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılması Azərbaycanın yürütdüyü uğurlu iqtisadi siyasətin nəticəsidir. İqtisadi artımın dinamikasının saxlanması, makroiqtisadi sabitliyin möhkəmlənməsi, investisiya şəraitinin yaxşılaşması, iqtisadiyyatın şaxələndirilməsinin sürətlənməsi əhalinin rifahını yüksəltməyə yönəlmiş uğurlu sosial siyasəti həyata keçirməyimizə imkan verir.

Azərbaycanın bütün sahələrdə, o cümlədən humanitar sferada əməkdaşlığın möhkəmlənməsinə böyük əhəmiyyət verdiyini diqqətə çatdıran Baş nazir bildirib ki, ölkəmiz humanitar əməkdaşlığın inkişafına sanballı töhfə verir. Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə başlanmış “Bakı Prosesi” - bu il on illiyi qeyd edilən Mədəniyyətlərarası Dialoq üzrə Beynəlxalq Forum tolerantlığın və xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə yönəlmiş birgə səyləri dəstəkləmək üçün səmərəli platformadır. Bu il oktyabrın 25-26-da Bakı şəhərində 86 ölkənin, 25 beynəlxalq və regional təşkilatın nümayəndələrinin iştirakı ilə, artıq ənənə halı almış, beynəlxalq mədəni və humanitar əməkdaşlığın möhkəmlənməsinə sanballı töhfə verən VI Beynəlxalq Humanitar Forum keçirildi. Yeri gəlmişkən, Rusiya Prezidenti Vladimir Putin forum iştirakçılarına müraciətində VI Bakı Forumunun “Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusunun müasir cəmiyyət üçün böyük əhəmiyyətini xüsusi qeyd edib.

Baş nazir Novruz Məmmədov vurğulayıb ki, ənənəvi olaraq Bakıda keçirilən beynəlxalq humanitar forumlar Azərbaycanın multikulturalizm dəyərlərini və mədəniyyətlərarası dialoqun inkişafına yönəlmiş səylərini əyani şəkildə nümayiş etdirir. Novruz Məmmədov deyib: “Əminəm ki, humanitar sahədə sıx əlaqələr əməkdaşlığın möhkəmləndirilməsi üçün əlverişli zəmindir. Hesab edirəm ki, MDB iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlığı sahəsində 2019-2020-ci illər üçün Prioritet Tədbirlər Planının həyata keçirilməsi humanitar sferada, xüsusən təhsil, elm, mədəniyyət, idman, turizm, habelə gənclərlə iş sahələrində qarşılıqlı fəaliyyətin genişləndirilməsinə şərait yaradacaq”.

MDB məkanında nizamlanmamış münaqişələr məsələsinə toxunan Azərbaycanın Baş naziri qeyd edib ki, bu problem regional əməkdaşlığın həyata keçirilməsi və Birliyin iştirakçısı olan bütün dövlətlər arasında daha sıx qarşılıqlı fəaliyyət üçün başlıca maneədir. Münaqişələrin suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı əsasında, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğun şəkildə tezliklə nizamlanması, şübhəsiz, regional və beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə kömək edəcək, davamlı inkişaf üçün daha əlverişli şərait yaradacaq.

***

Sonra MDB Hökumət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirib. İclasının gündəliyinə müxtəlif sahələrdə əməkdaşlığa dair 15 məsələ daxil edilib.

Əvvəlcə iclasda MDB iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti, nüvə və ya radiasiya qəza vəziyyəti yarandığı halda onların nəticələrinin aradan qaldırılmasına dair qarşılıqlı yardım üzrə saziş müzakirə edilib.

Sazişin əsas hədəfi fövqəladə hallar zamanı radioaktiv təsirə məruz qalan böyük ərazilər üçün bərpa texnologiyalarının işlənib hazırlanması, əhalinin təhlükəsizliyinin və sosial reabilitasiyasının təmin edilməsidir.

Eyni zamanda, iclasda sərbəst ticarət razılaşması layihəsinin hazırlanmasına xüsusi diqqət yetirilib. Qarşılıqlı ticarətdə sədlərin aradan qaldırılması üçün bu sahədəki prosedurların sadələşdirilməsi, həmçinin yeni texnologiyaların tətbiqi məsələləri müzakirə olunub. Bununla yanaşı, birgə fəaliyyətin daha da təkmilləşdirilməsi istiqamətində konkret təkliflər səsləndirilib.

İclasda MDB Hökumət Başçıları Şurasının növbəti iclasının 2019-cu il mayın 31-də Aşqabadda keçirilməsi qərara alınıb.

Hökumət Başçıları Şurasının Astana iclasının yekununda bir neçə sənədin, o cümlədən MDB üzv dövlətləri arasında vergi idarəçiliyi üzrə elektron informasiya mübadiləsi haqqında Protokol imzalanıb.

Bununla da iclas işini başa çatdırıb.

# MDB ölkələrinin hökumət başçıları Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə görüşüblər

Astanada MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edən nümayəndə heyətlərinin başçıları noyabrın 2-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov görüşdə iştirak edib.

Prezident Nursultan Nazarbayev MDB üzv ölkələrinin əməkdaşlığının möhkəmləndirilməsində şuranın iclasının xüsusi əhəmiyyətini vurğuladı və bildirdi ki, bu tədbir qarşılıqlı faydalı əlaqələrin daha da inkişafına kömək edəcək. Dövlət başçısı MDB ölkələri arasında ticari-iqtisadi əlaqələrin inkişaf etdirilməsinin vacibliyini söylədi.

Qazaxıstan Prezidenti bildirdi ki, MDB ölkələrimiz arasında tarixi əlaqələrin qorunmasına və hər bir ölkənin suverenliyini gücləndirməyə imkan verən tamhüquqlu bir təşkilatdır. MDB daxilində qarşılıqlı ticarət artmaqda davam edir. Ötən il ticarət dövriyyəsi 164 milyard ABŞ dolları təşkil edib ki, bu da 25 faiz artım deməkdir.



Nursultan Nazarbayev MDB Hökumət Başçıları Şurasının əvvəlki iclasının yekunlarına da toxunaraq deyib: “Biz təşkilatın gücləndirilməsi məsələlərini nəzərdən keçirdik. Bu, işin səmərəliliyinin artırılmasına və müasir reallıqlara uyğunlaşdırılmasına yönəlmiş modernləşmə prosesinin təşviqini nəzərdə tutur. Birlik çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi məqsədilə İqtisadi İnkişaf Strategiyasını yeniləmək və MDB ölkələrinin Xidmətləri üzrə Azad Ticarət Sazişinin qəbul edilmiş layihələrinin icrasını sürətləndirmək lazımdır”.

Bundan əlavə, Qazaxıstan Prezidenti Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclasında irəli sürülən yeni təkliflərin müzakirəsinin nəticələri barədə məlumat verdi. Təkliflərin arasında Birlik daxilində ticarət maneələrinin aradan qaldırılması, nəqliyyat və logistika, turizm sektorlarında qarşılıqlı əlaqələrin səmərəliliyinin artırılması, kosmik sənayedə layihələrin həyata keçirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı və innovativ həllərin istifadəsi məsələləri mühüm yer tutur.

Nursultan Nazarbayev Dövlət Başçıları Şurasının iclasında irəli sürülən təkliflərin yerinə yetirilməsi ilə bağlı praktiki işin lazım olduğunu qeyd etdi, bütün istiqamətlər üzrə kompleks tədbirlər planının hazırlanmasının vacibliyini bildirdi. Vurğuladı ki, bu təşəbbüslərin həyata keçirilməsi həm iqtisadi inkişafa, həm də ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinə kömək edəcək.

# Ali və Apelyasiya məhkəmələrinə yeni hakimlər təyin olundu

Noyabrın 2-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədov iclası açıq elan etdikdən sonra, gündəlikdəki məsələlərin müzakirəsi davam etdirildi.

İlk olaraq bir sıra məhkəmələrə hakimlərin təyin olunması ilə bağlı məsələlər müzakirəyə çıxarıldı. Bununla bağlı məlumat verən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dedi ki, ölkədə aparılan islahatlar nəticəsində məhkəmə-hüquq sistemi yeni inkişaf mərhələsinə qədəm qoyub, Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri artırılıb. 2007-ci ildən bu yana hakimlərin sayının iki dəfə artdığını deyən komitə sədrinin sözlərinə görə, Prezident İlham Əliyevin korrupsiya və neqativ hallara qarşı mübarizənin gücləndirilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələr məhkəmə-hüquq sistemindən də kənarda qalmayıb. Məhkəmə Hüquq Şurasının fəaliyyəti dövründə 230-dan çox hakim barədə intizam icraatı başlanılıb, qanun pozuntusu və digər neqativ hallara yol verdiyinə görə 100-dən çox hakim məhkəmə sistemindən kənarlaşdırılıb.

Komitə sədri məhkəmələrdə mövcud vakansiyalar barədə danışaraq qeyd etdi ki, Ali Məhkəmədə 1, Naxçıvanda 3, Bakı Apelyasiya Məhkəməsində 11, Sumqayıt Apelyasiya Məhkəməsində 4, Gəncə Apelyasiya Məhkəməsində 3, Şirvan Apelyasiya Məhkəməsində 4, Şəki Apelyasiya Məhkəməsində 4 vakansiya mövcuddur. Yeni təyinatlar həm hakimlərin iş yükünün azalması, həm də daha çox işə baxmaq imkanı verəcək. Komitə sədri bildirdi ki, müzakirəyə çıxarılan məsələyə əsasən, Ali və Apelyasiya məhkəmələrinə təyin olunmaq üçün nümunəvi hakimlər təqdim edilir.



Qısa müzakirədən sonra hakimlərin təyin olunması ilə bağlı 7 məsələ təsdiq olundu.

Sonra “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanunda, İnzibati Xətalar Məcəlləsində (üçüncü oxunuş), “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda (üçüncü oxunuş), “Televiziya və radio yayımı haqqında” (üçüncü oxunuş), “İctimai televiziya və radio yayımı haqqında”, (üçüncü oxunuş) və “Teatr və teatr fəaliyyəti haqqında” qanunlarda dəyişikliklər edilməsi barədə layihələr təsdiq olundu.

İclasda son olaraq “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu haqqında (ikinci səsvermə), “Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu haqqında (ikinci səsvermə) və “Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu haqqında (ikinci səsvermə) məsələlər müzakirəyə təqdim olundu.

Gündəlikdəki məsələlər ətrafında deputatlardan Fazil Mustafa, Tahir Kərimli, Zahid Oruc, Siyavuş Novruzov, komitə sədri Rafael Hüseynov fikirlərini bildirdilər. Yekunda hər üç məsələ ikinci səsvermədə təsdiq olundu.

İclasın sonunda Milli Məclisin Sədri Oqtay Əsədov bir neçə gün sonra əvvəlcə parlamentin komitələrinin birgə iclaslarında, sonra isə plenar iclasda 2019-cu ilin dövlət büdcəsi layihəsinin müzakirə olunacağını bildirdi.

***Rəşad CƏFƏRLİ,***
***Foto F.BAĞIROVUNDUR***
***“Azərbaycan”***

## S.F.Hacıyevin Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin II hissəsinə və 97-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Bakı Apelyasiya Məhkəməsinin hakimi Sənan Firudin oğlu Hacıyev vəzifəsi dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

**Əsgər Novruz oğlu Novruzov** - Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi
**Mehman Dünyamalı oğlu Allahverdiyev** - Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsinin hakimi
**Əhliman Mehman oğlu Xıdırov** - Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin sədri

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Bakı Apelyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə, 96-cı maddəsinin birinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Şirvan Apelyasiya Məhkəməsinin hakimi Kamran Hüseyn oğlu Əkbərov vəzifəsi dəyişdirilərək Bakı Apelyasiya Məhkəməsinin hakimi təyin edilsin.
2. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

**Vahid Nəriman oğlu Sadıqov** - Qəbələ Rayon Məhkəməsinin sədri
**İlham Bayram oğlu Əhmədov** - 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi
**Şərafət Asif qızı Məmmədova** - 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi
**Şeyda Ədalət qızı Məhərrəmova** - Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi
**Habil Çingiz oğlu Məmmədov** - Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi
**Elmar Eldar oğlu Rəhimov** - Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi
**İlham Əziz oğlu Kərimli** - Abşeron Rayon Məhkəməsinin hakimi

3. Aşağıdakı hakimlər səlahiyyət müddəti uzadılaraq Bakı Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

**Rəşad Məhərrəm oğlu Abdulov,**
**Fuad Fikrət oğlu Babayev,**
**Zaur Əli oğlu Əliyev,**
**Aida Əli qızı Hüseyn.**

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Gəncə Apelyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə, 96-cı maddəsinin birinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Gəncə Hərbi Məhkəməsinin hakimi Salman Bilal oğlu Hüseynov vəzifəsi dəyişdirilərək Gəncə Apelyasiya Məhkəməsinin hakimi təyin edilsin.
2. Aşağıdakı hakimlər səlahiyyət müddəti uzadılaraq Gəncə Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

**Afiq Hüseyn oğlu Hüseynzadə,**
**Rəşad Ziyaviddin oğlu Mamedov.**

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Sumqayıt Apelyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 96-cı maddəsinin birinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər səlahiyyət müddəti uzadılaraq Sumqayıt Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

**Höküm̈ə Çingiz qızı Babayeva,**
**Ruhiyyə Orucəli qızı Əsgərova,**
**Fuad Əli oğlu Məmmədov,**
**Məhəmmədəli Əsəd oğlu Rzayev.**

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Şirvan Apelyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə, 96-cı maddəsinin birinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şirvan Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər.

**Elşad İbiş oğlu Əliyev** - Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi
**Fuad Kamil oğlu Soltanov** - Lənkəran Rayon Məhkəməsinin hakimi

2. Aşağıdakı hakimlər səlahiyyət müddəti uzadılaraq Şirvan Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

**Fehruz Novruz oğlu Abbasov,**
**Müşfiq Kamil oğlu Həsənov,**
**Tale Suliddin oğlu Kərimov.**

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Şəki Apelyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə, 96-cı maddəsinin birinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şəki Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

**Mübariz Rahil oğlu Hüseynov** - Ağstafa Rayon Məhkəməsinin hakimi
**Vəzirxan İsgəndər oğlu Məlikov** - Yevlax Rayon Məhkəməsinin hakimi

2. Aşağıdakı hakimlər səlahiyyət müddəti uzadılaraq Şəki Apelyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

**Akif Məhərləm oğlu Eyvazov,**
**Ayaz Akif oğlu Mahmudov.**

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

## Diplomatik fəaliyyəti başa çatan Koreya səfiri ilə Azərbaycan Xarici İşlər Nazirliyində görüş keçirilib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Koreya Respublikasının ölkəmizdəki səfiri Kim Çanq Gyu ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər görüşdə Azərbaycan və Koreya arasında siyasi, iqtisadi, ticarət və digər sahələrdə əlaqələrin inkişafından məmnunluqla danışıblar və bu əməkdaşlığın gələcəkdə daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Səfir Kim Çanq Gyu diplomatik fəaliyyəti müddətində Azərbaycan tərəfindən ona göstərilən dəstəyi xüsusilə vurğulayıb və bu xüsusda təşəkkürünü ifadə edib.

Elmar Məmmədyarov Kim Çanq Gyuya gələcək fəaliyyətində müvəffəqiyyətlər arzu edib.

## Təhsil naziri Tərtərdə vətəndaşları qəbul edib

Noyabrın 2-də təhsil naziri Ceyhun Bayramov Tərtər şəhərindəki Gənclər Mərkəzində Ağdam, Füzuli, Beyləqan və Tərtər rayonlarının sakinlərini qəbul edib.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin noyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir C.Bayramov qəbula yazılmış vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, ali təhsil sənədlərinin verilməsi, təhsil sənədlərinin tanınması və digər məsələlərlə əlaqədar müraciət ediblər.

## Şeyxülislam Allahşükür Paşazadə İspaniyada beynəlxalq konfransda iştirak edəcək

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə noyabrın 3-də İspaniya Krallığına səfərə yola düşür.

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərdə məqsəd Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, İspaniyanın Ədliyyə Nazirliyi və Evsen Fondunun birgə təşkilatçılığı ilə ”Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi” mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etməkdir.

Konfransda Azərbaycanı hökumət üzvləri, parlament deputatları, tanınmış elm və din xadimləri, habelə rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Dağ yəhudiləri icmasının başçısı Milix Yevdayev və Katolik kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete təmsil edəcəklər.

İspaniya Krallığı Ədliyyə Nazirliyinin təşkilati dəstəyi ilə baş tutan bu beynəlxalq tədbirdə İspaniyanın yüksək səviyyəli dövlət, hökumət nümayəndələri və din xadimləri, o cümlədən Madrid arxiyepiskopu Karlos Siyerra iştirak edəcək.

İki gün davam edəcək konfransda 40-dək çıxış və məruzə dinləniləcək.

Ümumilikdə 1000-ə yaxın nümayəndənin iştirak edəcəyi konfrans yekun sənədin qəbulu ilə başa çatacaq.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin İspaniya hökumətinin üzvləri, ölkənin tanınmış ictimai-siyasi xadimləri ilə görüşləri də nəzərdə tutulur.

## Moskva ATƏT-in Qarabağ münaqişəsinin nizamlanmasına yönəlmiş səylərini müsbət qiymətləndirir

“Rusiyanın xarici işlər naziri Sergey Lavrovun sözlərinə görə, Moskva ATƏT-in Qarabağ münaqişəsinin nizamlanmasına yönəlmiş səylərini müsbət qiymətləndirir”.

AZƏRTAC xəbər verir ki, S.Lavrov bu fikri Moskvada ATƏT-in baş katibi Tomas Qreminger ilə görüşünün yekunlarına həsr edilmiş brifinqdə söyləyib.

Rusiyanın xarici işlər naziri qeyd edib ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşəcəklər və hər iki ölkə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə işləməyə hazırdır.

S.Lavrov deyib: ”Biz bu cür razılaşmanı alqışlayırıq, hərçənd başa düşürük ki, Ermənistanda hazırda müşahidə olunan qızğın daxili siyasi proseslər başa çatmayınca bu böhrandan çıxmağın və Qarabağ münaqişəsinin tam dəyərli nizamlanmasını təmin etməyin konkret variantlarını ciddi nəzərdən keçirmək yəqin ki, mümkün olmayacaq”.

RF XİN başçısının sözlərinə görə, Moskva Dnestryanı bölgədəki münaqişənin və Qarabağ münaqişəsinin tənzimlənməsinə, habelə Cənubi Qafqazda və Balkanlarda sabitliyə dair Cenevrə diskussiyalarında ATƏT-in səylərini müsbət qiymətləndirir.

## S.LAVROV: “Artıq uzun illərdir ki, yalnız Ermənistan və Azərbaycan arasında birbaşa danışıqlar aparılır”

Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvada keçirdiyi brifinqdə Qarabağ tərəfinin danışıqlar masası arxasına qayıtması barədə N.Paşinyanın bəyanatı ilə bağlı suala cavabında deyib: “Vaxtilə Qarabağın təmsilçiləri Bakı və Yerevan arasında danışıqlarda iştirak edirdilər. Ermənistan rəhbərliyinin təklifi ilə bu təcrübə dəyişdirildi və artıq uzun illərdir ki, yalnız Ermənistan və Azərbaycan arasında birbaşa danışıqlar aparılır”.

AZƏRTAC xəbər verir ki, S.Lavrov bildirib: “Nikol Paşinyanın Dağlıq Qarabağ tərəfinin danışıqlar prosesinə cəlb olunmasının zəruriliyi haqqında dəfələrlə səsləndirdiyi fikirlərə gəldikdə, biz artıq bu bəyanatı şərh etmişik. Bu məsələni münaqişə tərəfləri özləri həll etməlidir. Vaxtilə Qarabağın təmsilçiləri Bakı və Yerevan arasında danışıqlarda iştirak edirdilər. Ermənistan rəhbərliyinin təklifi ilə bu təcrübə dəyişdirildi və artıq uzun illərdir ki, yalnız Ermənistan və Azərbaycan arasında birbaşa danışıqlar aparılır. Əlbəttə, biz başa düşürük ki, Yerevan danışıqlar prosesindəki mövqeyində Qarabağın məsələyə yanaşma tərzini nəzərə alır, lakin hazırda mövcud olan ikitərəfli formatı dəyişdirmək üçün tərəflərin hər ikisinin razılığı tələb olunur. Bildiyimiz qədər, bu cür razılaşma yoxdur və düzünü desək, mən Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının mahiyyəti üzrə məsələlərin müzakirəsinə başlamaq üçün ilkin şərtlər irəli sürməzdim”.

# Əli HƏSƏNOV: "Azərbaycan Cənubi Qafqazda siyasi, iqtisadi, energetika baxımından lider ölkədir"

## Paraqvayın SNT televiziya kanalı Azərbaycan haqqında reportaj yayımlayıb







*Əvvəli 1-ci səh.*

Karlos Troçe Azərbaycana səfərinin və reportajı hazırlamaqda məqsədinin Latın Amerikası ölkələrinin xalqlarını bu ölkə ilə yaxından tanış etmək olduğunu bildirir. O, Azərbaycan ilə Latın Amerikası ölkələri arasında münasibətlərin genişlənməsinin tərəflər üçün faydalarını qeyd edir.

Reportajda Azərbaycanın tarixinə qısa ekskursiya edilir, əlverişli coğrafi mövqeyi, mədəniyyəti, adət-ənənələri barədə məlumat verilir. Bildirilir ki, ötən əsrin əvvəllərində Azərbaycan dünya neft bazarındakı neftin yarısını təmin edib. Azərbaycan çox zəngin, tolerant, dünyəvi bir ölkədir. Azərbaycan enerji resurslarından əldə olunan gəlirləri ölkənin inkişafına sərf edir. Paytaxt Bakıdakı tikililər həm qədimliyi, həm də müasirliyi ehtiva edir. Azərbaycan Latın Amerikası ölkələri, xüsusilə də Paraqvay ilə ticari-iqtisadi, mədəni əlaqələrini genişləndirir. Azərbaycan Paraqvaydan ət idxalında maraqlıdır.

Reportajda Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Azərbaycan ilə Latın Amerikası ölkələri, xüsusilə Paraqvay arasında əlaqələrin inkişafına dair fikirlərinə də yer verilir. Əli Həsənov deyir: "Əgər siz Azərbaycanda fəaliyyət göstərən restoranları gəzsəniz əminəm ki, Paraqvaydan idxal olunan ətdən istifadə edildiyini görəcəksiniz. İndi qida təhlükəsizliyinə nəzarət edən qurum ət idxalının təminatına da nəzarət edir. Düşünürəm ki, biz gələcəkdə də bu sahədə əməkdaşlıq edəcəyik". Müəllif qeyd edir ki, Azərbaycan tərəfi, öz növbəsində, paraqvaylı gənclərə ölkədə bakalavr və magistr pillələrində təhsil üçün təqaüd almaq imkanı yaradır. Azərbaycanın sürətli inkişafının əsas səbəblərindən biri də neft və qaz ixracından gələn gəlirlərin bir hissəsini təhsilə yatırmasıdır. Ölkədə yoxsulluğun səviyyəsi 5 faizə qədər azalıb, işsizliyin səviyyəsi də demək olar ki, sıfıra düşüb.

Reportajda Prezidentin köməkçisi Əli Həsənov qeyd edir ki, Azərbaycan Cənubi Qafqazda siyasi, iqtisadi, energetika baxımından lider ölkədir. Biz əlaqələrimizin inkişaf etməsini istəyirik. Azərbaycanla Paraqvay arasında əlaqələrin dərinləşməsi təkcə sərmayə baxımından deyil, texnologiya, təhsil sahələrində də əməkdaşlığa təkan verəcək.

Verilişin aparıcısının: "Biz Azərbaycana necə gedə, viza məsələlərini necə həll edə bilərik" - sualına cavabında Karlos Troçe deyir: "Bayaq dediyim kimi, Azərbaycanın Argentinada səfirliyi fəaliyyət göstərir. Paraqvaydan Azərbaycana səfər etmək üçün isə Argentinaya getməyə ehtiyac yoxdur. Azərbaycanda "ASAN viza" sistemi fəaliyyət göstərir. Beləliklə, səfirliyin səhifəsində paylaşdığı linkə daxil olmaq və onlayn qaydada çox rahat, çox asan, üç saat müddətində viza almaq mümkündür".

Aparıcı heyrətlə deyir: "Bu inanılmazdır".

Reportajda Azərbaycan xalq mahnılarının fonunda Bakının gəzməli-görməli yerlərindən videokadrlar göstərilir.

# Azərbaycanın müdafiə naziri ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşüb



Noyabrın 2-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskonti, Rusiyadan olan həmsədr İqor Popov, ABŞ-dan olan həmsədr Endrü Şofer və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə qoşunların təmas xəttindəki son vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri müzakirə olunub.

# Ordumuzun Azərbaycan peykindən istifadəsi hərbi imkanlarımızı daha da genişləndirir





Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Ordusunda yeni istismara verilmiş Peyk Rabitəsi İdarəetmə Mərkəzinin fəaliyyəti ilə tanış olub. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Tanışlıq zamanı bildirilib ki, təhlükəsizlik tədbirləri nəzərə alınmaqla peyk rabitə sistemi əsasən avtonom işləyən mərkəzi yerüstü stansiya, mobil və daşınan peyk rabitəsi vasitələri olaraq "Azərkosmos" ASC-nin peyki üzərindən fəaliyyət göstərir.

Bu peyk rabitə sistemi hücum və müdafiə əməliyyatlarında qoşunların mobil hərəkəti və çevik yerdəyişməsi zamanı komanda məntəqələri arasında səsli və mətn (DATA) məlumat mübadiləsinin təmin edilməsi üçün təyin edilib.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Ordusunun Rabitə Vasitələrinin Texniki Xidmət və Təmiri Mərkəzinin yeni istifadəyə verilmiş bölmələrinin açılışında da iştirak edib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov mərkəzin ərazisində yerləşən rabitə vasitələrinin təmiri üçün nəzərdə tutulmuş laboratoriyalar, eləcə də texniki, xidməti, inzibati otaqlar və saxlanclarda yaradılmış şəraitlə tanış olub.

Bildirilib ki, qoşunlarda istifadə edilən bütün növ stasionar və səyyar müasir hərbi kommunikasiya avadanlıqlarına mərkəzdə texniki xidmət göstərilir və onlar qısa müddətdə tam təmir olunaraq yenidən sıraya qaytarılır.

Avtomatlaşdırılmış idarəetmə sistemləri, radiostansiyalar və peyk avadanlıqlarının təmiri otaqlarında çalışan mütəxəssislərlə görüşən müdafiə naziri rabitə vasitələrinin müasir ordunun idarəetmə sisteminin əsas elementlərindən biri olduğunu qeyd edib.

General-polkovnik Z.Həsənov müasir döyüşdə bölmələrin fasiləsiz, sabit, operativ və gizli idarə olunması məsələsini Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daim diqqət mərkəzində saxladığını bildirərək mərkəzin imkanlarının daha da genişləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Avropa Yenidənqurma və İnkişaf Bankından İlham Əliyevin qlobal layihəsinə böyük dəstək

## Bank TAP üçün 1 milyard avroluq maliyyələşdirməni təmin edəcək

*Əvvəli 1-ci səh.*

Trans Adriatic Pipeline

Təqribən 145 kilometr ərazi bərpa olunaraq tamamilə əvvəlki vəziyyətinə gətirilib. TAP-ın Yunanıstan və Albaniya hissəsinin 756 kilometri, yəni, 98 faizində ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Bundan başqa, iki ölkədə boruların təxminən 90 faizi xəndəyə endirilib. Yunanıstan və Albaniyada xəndəyin qazılması işləri 97 faiz yekunlaşıb. TAP-ın borularının 90 faizdən çoxu Yunanıstan və Albaniya ərazisindədir. Yunanıstan və Albaniya marşrutunun 80 faizində torpaq örtüyü bərpa edilib. TAP-ın Yunanıstan və Albaniya hissəsinin 750 kilometrində (98 faiz) boruların qaynaq işləri yekunlaşıb.

Albaniyada TAP-ın 105 kilometrlik dəniz hissəsi üzrə mikrotunel üçün qazma işləri və boruların qaynağı üçün hazırlıqlara başlanıb. Boru kəmərinin bu hissəsinin inşası TAP-ın qrafikinə əsasən 2019-cu ildə həyata keçiriləcək. Polad borular dənizin altında ən müasir gəmilərlə qaynaq olunacaq. Qaynaq işlərindən sonra sınaqlar keçiriləcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək. 36 düymlük xəttin inşasında təxminən 9 min boru istifadə olunacaq. TAP-ın podratçısı İtaliyanın "Saipem" şirkəti dənizdəki tikinti işləri üçün təxminən 10 gəmidən istifadə edəcək.

TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla, ümumilikdə 2 kompressor stansiyasının inşası üzrə işlər qrafikə uyğun davam edir. Kipoidəki kompressor stansiyasında ümumi tikinti işlərinin 60 faizdən çoxu yekunlaşıb. Fierdəki kompressor stansiyasının tikintisinin 50 faizdən çoxu tamamlanıb. Kompressor stansiyaları ilə yanaşı, Albaniyanın şərqində, Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Ölçmə stansiyasında tikinti işlərinə ötən ilin birinci rübündə başlanılıb və stansiyanın inşasının 50 faizi tamamlanıb. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən iki il müddətində başa çatdırılacaq.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan TAP "Cənubi Qafqaz Boru Kəməri"nin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur və iyul ayının sonuna TAP-a 3,1 milyard avro sərf olunub.

Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Boru kəməri buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün geniş imkanlar yaradır. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz).

# Hərbi Hava Qüvvələrinin yeni hərbi hissəsi istifadəyə verilib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HHQ-nin yeni hərbi hissəsinin açılışında iştirak edib, burada hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olublar.

Müdafiə Nazirliyinin rəhbərliyi hava hücumundan müdafiə bölmələrinin döyüş texnika və vasitələrinə, yeni istifadəyə verilən qərargah, əsgər yataqxanası, yeməkxana, sıra meydanı, tibb məntəqəsi, hamam-qazanxana, digər xidməti və inzibati otaqlara baxış keçirib.

Məruzə olunub ki, yaradılan şərait şəxsi heyətin gündəlik xidmətinin təşkilinə müsbət təsir göstərəcək, habelə hava məkanımızın daha etibarlı qorunması məqsədilə döyüş hazırlığı və döyüş növbətçiliyinin yüksək səviyyədə təşkili və aparılmasını təmin edəcək.

Sonra müdafiə naziri hərbi hissənin silahlanmasındakı zenit-raket komplekslərinə baxış keçirib və HHQ-nin Döyüşü İdarəetmə Mərkəzində olaraq komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# Erməni KİV: "İlham Əliyev Ermənistanı təcrid və bütün imkanlardan məhrum edib"

## Ermənistan mətbuatı və ekspertləri işğalçı ölkənin regional münasibətlərdə də Azərbaycan Prezidenti tərəfindən iflasa uğradıldığını açıq şəkildə bəyan edirlər

*Əvvəli 1-ci səh.*

Nazirlər xarici işlər nazirlərinin bundan əvvəlki üçtərəfli görüşlərdə qəbul olunmuş Urmiya, Naxçıvan, Van, Ramsar və Bakı bəyannaməsinə sadiq olduqlarını vurğulayıblar. Regionda ümumi tarixi köklərə, mədəniyyətə, din və ənənələrə əsaslanan üç ölkənin xalqları arasında həmrəylik və əməkdaşlığı daha da gücləndirmək üçün güclü iradə olduğu bir daha təsdiqlənib. Müxtəlif səviyyə və platformalarda, beynəlxalq və regional təşkilatlar çərçivəsində regional və beynəlxalq sülh, təhlükəsizlik və sabitliyin gücləndirilməsi məqsədilə ümumi maraqlar kəsb edən regional və qlobal məsələlərə dair sıx məsləhətləşmələrin davam etdirilməsi üçün razılıq əldə olunub.

Nazirlər beynəlxalq hüququn prinsipləri, xüsusilə də suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət və dəstək, bütün mübahisələrin sülh yolu ilə həlli və daxili məsələlərə qarışmamaq prinsipləri üzrə öhdəliklərini vurğulayıblar. Bu xüsusda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yuxarıda qeyd olunan prinsiplər əsasında həllinin vacibliyini bir daha qeyd ediblər. Eyni zamanda, sözügedən bəyanatda Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, həmçinin BMT, ATƏT və Avropa Şurasının müvafiq qətnamələri, bəyanatları və qərarlarına uyğun olaraq həllinə nail olmağın əhəmiyyəti də xüsusi olaraq diqqətə çatdırılıb.

Göründüyü kimi, burada region dövlətləri, xüsusilə İran tərəfindən açıq-aşkar Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunur. Aydındır ki, bütün bunlar region dövlətlərinin və bütün beynəlxalq ictimaiyyətin Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləməsinin bariz nümunəsidir.

### "Yerevan heç bir regional inteqrasiya layihəsində təmsil olunmayıb"

İran üzrə erməni ekspert Aaron Vardanyan da bildirir ki, Ermənistan kimi heç bir şeyin dəyişmədiyini düşünərək boş-boş oturmaq olmaz. Onun sözlərinə görə, regionda vəziyyət dəyişir: "Bu isə ildən-ilə deyil, artıq hər saniyə baş verir, odur ki, hazır olmaq lazımdır. Türkiyə hər dəfə bildirir ki, Qarabağ münaqişəsi Azərbaycanın xeyirinə həll edilməlidir. İstanbul görüşündə isə İranın ərazi bütövlüyü prinsipini qeyd etməsi aydın məsələdir. Bu fakt qarşısında Ermənistanda bir sıra suallar səsləndirilməsi təbiidir. Ermənistan-İran münasibətlərində həqiqətən, böhran varmı? Narahat olmaq üçün əsas varmı? İki ölkə arasında münasibətlər hansı səviyyədədir? Hələ yayın əvvəllərində Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Nikol Paşinyanın Tehrana səfərinə hazırlıqlar aparıldığını açıqlamışdı. Səfər hələ də baş tutmayıb, bunun əvəzində isə iki ölkənin liderləri BMT Baş Assambleyası çərçivəsində görüşüblər. Bu isə xüsusən iki qonşu, dost ölkə barədə danışarkən effektli müzakirələrin aparılması üçün bir o qədər də uyğun şərait sayılmır".

Erməni politoloq Sarkis Artsruninin fikrincə, Ermənistanda ciddi problemlər var, belə ki, Azərbaycandan fərqli olaraq Yerevan heç bir regional inteqrasiya layihəsində təmsil olunmayıb: "Hökumət qurulduqdan sonra ilk 6 ayda İran-Ermənistan münasibətlərində aktivləşmənin müşahidə olunmamasını nəzərə alsaq, Paşinyanın Sünik vilayətinə yeni qubernator təyin etməsini narkobizneslə mübarizə ilə əlaqələndirərək məhz İranla sərhədə işarə vurması, Tehranda yeni erməni hökumətinin siyasəti ilə bağlı müəyyən narahatlıqlar yarada bilər və Yerevana siyasi ismarıclar göndərmək məcburiyyətində qalar".

### "Ermənistanda antirusiya tendensiyası getdikcə güclənir"

Region ölkələrindən Rusiya da Ermənistanın siyasətindən açıq narazılıq edir. Elə rusiyalı ekspert Qriqori Triomfçuk da vurğulayır ki, Ermənistandakı antirusiya tendensiyasının getdikcə güclənməsi vəziyyətə birbaşa təsir edir. Onun sözlərinə görə, aprel ayından başlayaraq, çoxsaylı erməni fəalı öz adlarını gizlətmədən, açıq mətnlə öz vətəndaşlarını rus təşkilatları ilə əməkdaşlıqda, qrant və sair vasitə pul almaqda ittiham edirlər: "Aydındır ki, erməni fəallar bunun üçün hamının başa düşə biləcəyi sadə əsaslara istinad edirlər: Sarkisyan dövrünün məmurları birbaşa Moskva və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə əlaqələndirilir və bu təşkilatın Ermənistanı qoruyacağına şübhə ilə yanaşırlar". Ekspertin fikrincə, bu şəraitdə Rusiyanın Yerevana əvvəlki münasibət bəsləməsi mümkünsüz hala gəlir.

### "Yerevan üçün problemli günlər başlayır"

Ermənistanın "Iragir.am" portalı yazır ki, İlham Əliyev Ermənistanı təcrid və bütün imkanlardan məhrum edib. Eyni zamanda, vurğulanır ki, Yerevan Rusiya siyasətini Qərbdən aldığı dəstəklə yenidən gözdən keçirir: "ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Rusiya və Cənubi Qafqaz ölkələrinə səfəri, mahiyyətcə ABŞ-ın Cənubi Qafqazı özünün strateji maraq və təsir zonası elan etməsindən, beləliklə, regiondakı əsrlik rus-türk "status-kvo"sunu və Rusiyanın ənənəvi rolunu mübahisələndirməsindən ibarət olan kəskin bəyanatlarla əlamətdar oldu. O da nəzərə alınmalıdır ki, Bolton səs-küylü bəyanatlarının əksəriyyətini məhz Yerevanda verib. Digər tərəfdən, əgər ABŞ Rusiyanın regiondakı rolunu və yüzillik rus-türk "status-kvo"sunu mübahisələndirirsə, o halda məhz Ermənistan həlledici əhəmiyyət qazanır. Çünki burada Rusiyanın təsir imkanlarının zəiflədilməsi regionda Moskvanın mövqeyinə birbaşa təsir edir. Nikol Paşinyan iqtidarı bu xüsusda ABŞ-ın işinə yarayır. Amma bundan sonra Rusiyanın atacağı addımlar və xüsusən Dağlıq Qarabağ məsələsində tutacağı mövqe yəqin ki, Yerevan üçün çox problemli olacaq. Bir sözlə, Yerevan üçün çox problemli günlər başlayır".

Beləliklə, aydın görünür ki, Ermənistan yürütdüyü destruktiv siyasət nəticəsində qonşu dövlətlərlə və beynəlxalq ictimaiyyətlə münasibətlərdə hərtərəfli gərginliyə malikdir. Nəticə etibarilə, Ermənistanın qonşu və region dövlətləri, o cümlədən aparıcı dövlətlər və güc mərkəzləri ilə münasibətləri büsbütün iflasa uğrayıb. O da aydındır ki, Ermənistanın indiki rəhbərliyi regional və beynəlxalq reallığı düzgün dərk edib nəticə çıxarmadığı halda, ölkənin iflası və özünü təcridi daha da dərinləşəcək.

Bunu Ermənistan rəhbərliyinin tez anlaması yalnız onların özlərinin xeyirinə ola bilər. Əks təqdirdə, işğalçı ölkənin çöküşü sürətlə davam edəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 840-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1219-VQD, 1221-VQD, 1226-VQD nömrəli qanunları) 253-1.1.3-cü maddəsindən ", kadastrı" sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1251-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1251-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı və 27-ci bəndlərini rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 931-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədilə **qərara alır:**

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572; 2011, № 12, maddə 1089; 2013, № 11, maddə 1318; 2014, № 1, maddə 9, № 7, maddə 777; 2015, № 2, maddələr 74, 96, № 3, maddə 253; 2016, № 2, I kitab, maddə 184, № 3, maddə 416; 2017, № 7, maddə 1290) 7.1.2-ci maddəsində "təhqiqatında" sözü "araşdırılmasında" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1245-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1245-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 606; 2017, № 12, I kitab, maddə 2208; 2018, № 3, maddə 402) 11.0.2-ci maddəsində "və bələdiyyədən" sözləri ", bələdiyyə mülkiyyətində olan torpaqlardakı yaşıllıqların uçotu və monitorinqi barədə isə bələdiyyədən" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1252-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1252-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 931-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 689; 2007, № 12, maddə 1218; 2009, № 12, maddə 948; 2011, № 3, maddə 169; 2015, № 1, maddə 10, № 2, maddə 95; 2016, № 10, maddə 1604; 2017, № 3, maddə 338, № 5, maddə 693) aşağıdakı dəyişikliklər edilsin:

1. 10.4-cü maddənin ikinci hissəsində "təhqiqini" sözü "araşdırılmasını" sözü ilə əvəz edilsin.

2. 13.2-ci maddənin birinci hissəsinin birinci cümləsində "təhqiq edən" sözləri "araşdıran" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1244-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1244-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 312, № 6, maddə 415; 2007, № 8, maddə 754; 2008, № 8, maddə 709; 2010, № 4, maddə 274, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 9; 2018, № 1, maddə 9) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 43-cü maddənin birinci və üçüncü hissələrində, 142-ci maddənin birinci hissəsinin doqquzuncu abzasında, 166-cı maddənin birinci hissəsində, 261-ci maddənin ikinci hissəsinin səkkizinci abzasında, 297-ci maddənin birinci hissəsinin on dördüncü abzasında, 305-ci maddənin birinci hissəsinin dördüncü abzasında "papiros" sözü "tütün" sözü ilə əvəz edilsin.

2. 156-cı maddənin üçüncü hissəsində "Papiros" sözü "Tütün" sözü ilə əvəz edilsin.

3. 257-ci maddənin birinci hissəsinin altıncı abzasında "papirosu" sözü "tütünü" sözü ilə əvəz edilsin.

4. Həmin nizamnaməyə 5 saylı əlavənin 2-ci maddəsinin birinci hissəsinin ikinci abzasında və 4-cü maddəsində, 8 saylı əlavənin "b" bəndinin səkkizinci abzasında "papiros" sözü "tütün" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1264-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1264-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

"Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1087; 2018, № 4, maddə 700) 2.5-ci bəndinə "həmin qanunun" sözlərindən sonra "4.0.3-cü," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 957-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 190 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 840-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 2 may tarixli 957-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 iyun tarixli 190 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 640; 2017, № 12 (I kitab), maddə 2286; 2018, № 3, maddə 439) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.1-1-ci bənddə "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin qanunun" sözləri ilə əvəz edilsin.

2. 3.4-cü bəndə "nəzərdə tutulmuş" sözlərindən əvvəl "və 16.1-ci maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 3.5-1-ci bənd əlavə edilsin:

"3.5-1. həmin qanunun 21.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# Azərbaycan və Qazaxıstan mərkəzi seçki komissiyaları arasında anlaşma memorandumu imzalanıb

Noyabrın 1-2-də Qazaxıstanın paytaxtı Astanada keçirilən "Seçkilərdə müasir texnologiyaların rolu: standartların təkmilləşdirilməsi, ictimai etimad" mövzusunda beynəlxalq konfrans öz işini yekunlaşdırıb.

AZƏRTAC xəbər verir ki, konfransda iştirak edən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov səfər çərçivəsində qazaxıstanlı həmkarı ilə yanaşı, bir sıra ölkələrin seçki idarəetmə qurumlarının rəhbərləri və digər rəsmi şəxslərlə görüşlər keçirib seçkilərlə bağlı müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivləri və maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

Noyabrın 2-də Astanada Azərbaycan və Qazaxıstan mərkəzi seçki komissiyaları arasında anlaşma memorandumu da imzalanıb. Memorandumu Azərbaycan Mərkəzi Seçki Komissiyası adından sədr Məzahir Pənahov və Qazaxıstan Mərkəzi Seçki Komissiyası adından sədr Berik İmaşev imzalayıblar.




Anlaşma memorandumu bütün sahələrdə əlaqələri ildən-ilə genişlənən Azərbaycan və Qazaxıstan ali seçki qurumları arasında münasibətlərin intensivləşdirilməsi və təcrübə mübadiləsinin aparılması istiqamətində qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşdirilməsi məqsədi daşıyır.

# "Samur" dövlət sərhədindən buraxılış məntəqəsində xidməti fəaliyyət nəzərdən keçirilmişdir





2018-ci il noyabrın 2-də Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev, Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev və Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov "Samur" dövlət sərhədindən buraxılış məntəqəsində mövcud vəziyyət və xidməti fəaliyyətin təşkili ilə tanış olmuşlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi barədə verdiyi tapşırıqların icra vəziyyəti və bu istiqamətdə görülmüş tədbirlərin səmərəliyinin qiymətləndirilməsi məqsədilə dövlət sərhədindən keçən şəxslərlə söhbətlər edilmiş, ölkəyə gələn və ölkədən gedən şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd və gömrük nəzarətinin effektivliyinin daha da artırılması və yoxlama müddətlərinin maksimal azaldılması məsələləri nəzərdən keçirilmişdir.

Bu məqsədlə sərhəd nəzarəti və gömrük orqanlarının vəzifəli şəxslərinin iştirakı ilə keçirilmiş xidməti müşavirədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin turizm imkanlarının genişləndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi və dövlət qurumları tərəfindən Azərbaycan vətəndaşlarının mənafelərinin qorunması ilə bağlı tapşırıq və göstərişlərinin icra vəziyyəti ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində "Samur" dövlət sərhədindən buraxılış məntəqəsində Dövlət Miqrasiya Xidməti tərəfindən vətəndaşlara müvafiq xidmətlərin göstərilməsi, o cümlədən miqrasiya qanunvericiliyinin pozulması ilə əlaqədar hallarda dövlət sərhədindən keçən şəxslərin artıq vaxt itkisinə məruz qalmadan miqrasiya orqanlarına müraciət edə bilmələri üçün yaradılmış şəraitlə tanışlıq olmuşdur. Bunun Azərbaycan Respublikası vətəndaşlarının və əcnəbilərin sərhədkeçmə prosedurları ilə əlaqədar məmnunluq səviyyəsinin yüksəldilməsinə yönəlmiş ciddi addım olması qeyd edilmişdir.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasovun iştirakı ilə "Samur" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşısında abadlaşdırılma işlərinin aparılması və vətəndaşlar üçün daha əlverişli şəraitin yaradılması məsələləri müzakirə olunmuş, Azərbaycan Respublikası və Rusiya Federasiyası hökumətlərinin arasında imzalanmış sazişə uyğun olaraq "Samur" çayı üzərində yeni körpünün inşası ilə əlaqədar görülən işlərə baxış keçirilmişdir.

*"Azərbaycan"*

# Milli Onkologiya Mərkəzinin yeni korpusunda 2 ədəd "VitalBeam™" xətti sürətləndirici sistemi istifadəyə verilib





Milli Onkologiya Mərkəzinin (MOM) şüa müalicəsi şöbəsində əlavə olaraq ikimərtəbəli yeni korpus tikilib və dünyanın tibbi qurğular və xərçəng xəstəliyinin müalicəsi üçün proqram təchizatı istehsalı sahəsində aparıcı şirkəti olan Amerikanın "Varian Medical System"in 6-10 MeV-lıq yüksək enerjili 2 ədəd xətti sürətləndiricisi quraşdırılıb. Bununla da, MOM-un şöbəsində fəaliyyət göstərən və ən müasir kompüter proqramları ilə təchiz edilən xətti sürətləndiricilərin sayı 7-yə çatıb ki, bu da dünyada ən yüksək göstəricidir.

Açılışı bildirən rəmzi qırmızı lent kəsildikdən sonra MOM şöbəsinin yeni korpusu ilə tanışlıq olub.



AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən MOM-un baş direktoru, akademik Cəmil Əliyev səhiyyənin ən vacib sahələrindən biri olan onkologiyaya Azərbaycanda xüsusi diqqət yetirildiyini bildirib. Qeyd edilib ki, Azərbaycan Prezidentinin diqqəti və qayğısı sayəsində hazırda Milli Onkologiya Mərkəzi ən müasir avadanlıqla təchiz olunub. Zəngin maddi-texniki bazaya və güclü kadr potensialına malik olan MOM-u artıq dünyanın aparıcı onkoloji mərkəzləri ilə müqayisə etmək olar. Vurğulanıb ki, burada aparılan müalicənin əsas məqsədi xəstələrin ömrünün uzadılması, onların mümkün olduğu qədər tam şəfa tapmasıdır.

Akademik öz çıxışında xatırladıb ki, son illər Milli Onkologiya Mərkəzi onkoloji xəstələrin müalicəsi üçün zəruri yeni texnologiyaların istehsalçısı olan dünyanın aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir. MOM ilə Amerikanın bədxassəli şişlərin radioterapiyası üçün müasir texnologiyaları layihələşdirən və istehsal edən "Varian Medical Systems" şirkəti arasında 2014-cü ilin oktyabrında imzalanmış əməkdaşlıq haqqında saziş buna sübutdur. Bununla da, Milli Onkologiya Mərkəzi rəsmi referens-mərkəz statusunu alıb. Sənəd tərəfdaşlar arasında əməkdaşlığın genişləndirilməsinə, müasir texnologiyaların Azərbaycana daha qısa vaxt ərzində çatdırılmasına, xarici mütəxəssislərlə geniş fikir mübadiləsi aparılmasına şərait yaradır. Bununla yanaşı, imzalanmış saziş Milli Onkologiya Mərkəzində onkoloji xəstələrə göstərilən yüksək səviyyəli xidmətin dünyanın aparıcı klinikaları tərəfindən tanınmasını təsdiq edir.

MOM-un şüa müalicəsi şöbəsinin müdiri, əməkdar elm xadimi, professor İsa İsayev qeyd edib ki, tibb işçilərinin radioşüalanmanın mənfi təsirinə məruz qalmaması məqsədilə mərkəzin şöbəsinin yeni korpusunun tikintisində Beynəlxalq Atom Enerjisi Agentliyinin tövsiyələri əsasında və Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin nəzarəti altında spesifik materiallardan istifadə edilib. Qeyd olunub ki, yüksək kadr potensialına malik MOM-un şüa müalicəsi şöbəsində hər gün 200-250, il ərzində isə 3 min insan radioterapiya alır. "Varian Medical System" şirkətinin Bakıdakı referens-mərkəzində radioterapiya üzrə praktik məşğələlər keçirilir, həmçinin xarici ölkədən olan həkimlər üçün müasir radioterapiya üsullarına həsr edilən kliniki proqramlar üzrə məşğələlər təşkil edilib. Eyni zamanda, seminarlar Azərbaycanın həm radiasiya onkoloqları, həm də digər mütəxəssislər - tibb fizikləri, mühəndislər və texniklər üçün keçirilir. Bununla yanaşı, elektrik enerjisinin fasiləsiz təminatı məqsədilə şüa müalicəsi şöbəsinin texniki xidmət otağında 16 generator quraşdırılıb. Həmçinin qeyd olunub ki, radioterapiyanın qabaqcıl üsullarının, xüsusilə stereotaksik radiocərrahiyyənin öyrənilməsi çox mürəkkəb məsələdir. Bu müalicə üsulu üçün yüksəkixtisaslı kadrlar və müasir avadanlıqlar tələb olunur. Bununla bağlı, Avropadan olan aparıcı mütəxəssislər tərəfindən mərkəzin tibb fizikləri, mühəndisləri və texnikləri üçün mütəmadi əsasda treninqlər keçirilir.

Sonda akademik Cəmil Əliyev tibb işçilərinə elmi-praktik fəaliyyətlərində uğurlar arzulayıb.

# "Azercell"in 24/7 rejimində fəaliyyət göstərən peşəkar Telefon Mərkəzi yubileyini qeyd edir

Azərbaycanda ilk peşəkar xidmət sahəsinin - Telefon Mərkəzinin - yaranmasından 20 il ötür və bu mühüm hadisə "Azercell Telekom"un adı ilə bağlıdır. Belə ki, "Azercell Telekom" MMC 1998-ci il noyabrın 1-də ölkəmizdə ilk dəfə olaraq 24/7 rejimində fəaliyyət göstərən Telefon Mərkəzini istifadəyə verib, 2009-cu ildə isə Gəncədə ilk Regional Telefon Mərkəzini yaradıb.



Müasir dövrdə hər hansı bir iri şirkəti telefon müştəri xidməti olmadan təsəvvür etmək mümkün deyil. 20 ildir ki, "Azercell"in Telefon Mərkəzinin vasitəsiylə abunəçilər günün istənilən saatında şirkətlə əlaqə saxlayaraq müxtəlif əməliyyatları həyata keçirir, istənilən məsələlərlə bağlı məlumat əldə edir və texniki dəstək alırlar. Lakin bu gün 20 illiyini qeyd edən qrup bu illər ərzində inkişaf yolu keçib və şaxələnərək Müştəri Dəstək Xətti, Online Chat, Sosial Media ve Premium Dəstək Xətti olaraq müştərilərə müxtəlif növlü xidmətlər göstərir.

20 il ərzində Telefon Mərkəzi tərəfindən 50 milyondan artıq abunəçi müraciəti qəbul olunub. Azərbaycan telekommunikasiya bazarında liderliyini qoruyan, daim texnoloji yenilikləri tətbiq edən, bütün müasir xidmətləri abunəçiləri üçün mümkün edən "Azercell Telekom" MMC zamanın tələblərinə uyğun olaraq Müştəri Dəstək Xəttinin xidmət kanalları və növlərini hələ çox müasirləşdirmək və genişləndirmək niyyətindədir. Bununla da, müştəriyə xidmət mərkəzi bir virtual katib kimi müştərilərlə aktiv ünsiyyətdə olaraq, müraciətlərin daha da sürətli və rahat həllinə kömək göstərəcək.

Hər gün, hər saat, hər dəqiqə müştərilərin zənginə cavab verən Telefon Mərkəzi peşəkar komandadan ibarətdir. Bunu müştərilər arasında aparılan sorğular, qiymətləndirmə təşkilatlarının keçirdiyi araşdırmalar da təsdiq edir. Belə ki, 2018-ci ilin ilk 6 ayının nəticələrinə görə respondentlərin 93 faizi Telefon Mərkəzinin təqdim etdiyi xidmətlərdən razılığını bildirib. Bu zaman zəngə cavab verilməsi müddəti, operatorun müştəri ilə davranış tərzi, məlumatın qəbul edilməsi, problemlərin dərhal həll olunması kimi amillər də nəzərə alınıb.

"Azercell" 4,5 milyonluq abunəçi ailəsininin müraciətlərini araşdırıb həll edərkən ilk növbədə, məxfilik, düzgünlük, tərəfsizlik, operativlik və rahatlıq prinsiplərinə əsaslanır. Fəaliyyətə başladığı gündən müştəri məmnuniyyətinin artırılmasını hədəfləyən şirkət abunəçiləri tərəfindən irəli sürülən bütün təklif və şərhləri diqqətlə araşdırır. Müştəri Xidmətləri və Telefon Mərkəzinin fəaliyyəti və keyfiyyəti mütəmadi olaraq beynəlxalq audit şirkətləri tərəfindən dəyərləndirilir və sertifikatlaşdırılır. Qeyd edək ki, "Azercell"in Telefon Mərkəzi 2011-ci ildə EN 15838:2009 və 2018-ci ildə ISO18295 beynəlxalq keyfiyyət sertifikatlarına layiq görülüb.

*"Azərbaycan"*

# Axtarışda olan şirkət rəhbəri sərhədi pozarkən tutulub

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri davam etdirilir.

2018-ci ilin oktyabrın 31-də Dövlət Sərhəd Xidməti əməkdaşlarının sayıqlığı və peşəkarlığı nəticəsində Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən AR-nın Cinayət Məcəlləsinin 179.3.1-ci və 179.3.2-ci maddələri ilə təqsirli bilinən, barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilmiş və axtarışda olan "AMAY" MMC tərəfindən İranda təsis edilmiş "Azər Caspian İran" şirkətinə məxsus müəssisələrə rəhbərlik edən 20.10.1976-cı il təvəllüdlü Bayramov Nizami İmran oğlu Yardımlı rayonu ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozarkən saxlanılmışdır.

N.Bayramovun üzərinə baxış keçirilərkən 20 qram tiryək, "Nokia" markalı mobil telefon, 150 ABŞ dolları və 100 manat pul aşkarlanmışdır.

Saxlanılan şəxsə həmin əməllərinə görə AR CM-in 318.1-ci, 206.2-ci və 234.1-ci maddələri üzrə ittiham elan edilmişdir.

*"Azərbaycan"*

# "AzerGold" QSC təmsilçiləri Avstraliyada nüfuzlu beynəlxalq konfransda iştirak ediblər

29 oktyabr-1 noyabr tarixlərində "AzerGold" QSC təmsilçiləri Avstraliyada təşkil olunan 5-ci Beynəlxalq Dağmədən və Ehtiyatlar Konfransında (International Mining and Resources Conference - IMARC) iştirak ediblər. Melburn şəhərində təşkil olunan tədbirdə hər il dünya üzrə dağ-mədən sahəsinin aparıcı şirkətlərinin rəhbərləri, sərmayəçilər, maliyyə qurumları bir araya gəliblər.

"AzerGold" QSC-nin nümayəndə heyətinin təşkilatçıların rəsmi dəvəti əsasında baş tutan səfəri çərçivəsində 40-dan çox şirkətlə, o cümlədən "Cargill International Pty Ltd", "Scania Australia", "TUMAD Mining", "EMR Capital" kimi nüfuzlu və tanınmış şirkətlərlə təşkil olunan ikitərəfli görüşlərdə kəşfiyyat, metallurgiya, mədənçilik üzrə ən son texnoloji nailiyyətlər, istehsalatın optimallaşdırılması, yeni texnologiyaların tətbiqi, investisiyaların cəlb edilməsi, əməkdaşlığın qurulması perspektivləri müzakirə edilib. Xarici şirkətlər "AzerGold" QSC-nin qısa müddət ərzində hasilatda və ixracda əldə etdiyi göstəriciləri yüksək qiymətləndirib, əməkdaşlıq üçün böyük potensialın mövcudluğunu vurğulayıblar.

Qeyd edək ki, faydalı qazıntıların hasilatı sahəsində fəaliyyət göstərən şirkət, investor, mütəxəssislər və təşkilatları bir araya toplayan və dağ-mədən sahəsinin kəşfiyyatdan tutmuş investisiyaya qədər bütün aspektlərini əhatə edən Beynəlxalq Dağmədən və Ehtiyatlar Konfransında bu il 90-dan çox ölkəni təmsil edən 6 mindən artıq mədənçilik mütəxəssisi, 400-dən artıq investor, 250-dən artıq dağ-mədən şirkəti iştirak edib

*"Azərbaycan"*

# İnsanları aldadaraq pullarını mənimsəyən şəxs saxlanılıb

Sosial şəbəkələrdə insanların etimadını qazanan və həmin şəxsləri aldadaraq onlara külli miqdarda maddi ziyan vuran şəxslərə qarşı daxili işlər orqanlarının əməkdaşları tərəfindən növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə "Instagram" sosial şəbəkəsində "hacker_azerbaijan" və "hacker_club_aze" səhifələrinin sahibinin vətəndaşların etibarından sui-istifadə edərək onları dələduzluq yolu ilə aldatdığı barədə çoxsaylı müraciətlər daxil olub.

Əməliyyat tədbirləri nəticəsində müəyyən edilib ki, həmin səhifədə insanlara pul əvəzində guya xüsusi kompüter proqramlarının köməyi ilə qarşı tərəfin xəbəri olmadan mobil telefonun yönləndirilməsi, telefonda ön kameranın açılması və bu üsulla telefon sahibinin gedəcəyi yerlər haqqında məlumatların əldə edilməsi, həmçinin universitetlərə qəbul imtahanları zamanı keçid balının qaldırılması, sosial şəbəkələrdə profillərin izlənməsi kimi uydurma xidmətlər təklif olunur.

Keçirilən əməliyyat-axtarış və texniki tədbir nəticəsində "hacker_azerbaijan" və "hacker_club_aze" səhifəsinin Mingəçevir şəhər sakini Cavid İbadov tərəfindən idarə olunduğu müəyyən edilib və o, saxlanılaraq məsuliyyətə cəlb olunub.

Araşdırma zamanı müəyyən edilib ki, C.İbadov qarşı tərəfin şəxsi məlumatlarını və pulunu əldə edən kimi həmin şəxsləri sosial şəbəkələrdə "qara siyahı"ya ataraq onlarla əlaqələrini kəsib. Həmçinin o da müəyyən edilib ki, C.İbadov tələb etdiyi pulu ona göndərməyən insanları həmin şəxslər barəsində əldə etdiyi məlumatları yayacağı ilə də hədələyib.

Faktlarla bağlı baş idarənin istintaq şöbəsində araşdırmalar davam edir. Saxlanılan şəxsin hələlik istintaqa məlum olan 3 nəfərdən ümumilikdə 9 min manat pul aldığı sübuta yetirilib. C.İbadovun adları qeyd edilən səhifələr vasitəsilə "Instagram" sosial şəbəkəsində aldatdığı və pulunu mənimsədiyi başqa şəxslər varsa, bu barədə Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə məlumat verə bilərlər.

Daxili İşlər Nazirliyi vətəndaşlara xəbərdarlıq edərək sosial şəbəkələrdən istifadə edən zaman bu tipli vədlər verərək insanları dələduzluq yolu ilə aldadan və pullarını mənimsəyən, həmçinin müəyyən xidmətlər müqabilində şəxsi məlumatlar tələb edən səhifələrdən uzaq durmağı tövsiyə edir.

# Dünya Bankı Azərbaycandakı islahatları nümunə göstərir

## "Doing Business 2019" hesabatı ölkəmizdə uğurlu sosial-iqtisadi modelin həyata keçirildiyini bir daha təsdiqlədi

*Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan dövləti kimi qeyd edilməsi, 190 ölkə arasında 25-ci yeri tutaraq bir çox ölkələri geridə qoyması və MDB məkanında lider mövqeyə yüksəlməsi müzakirə mövzusu olaraq qalır.*

*Mövzu ilə bağı fikirlərini bölüşən deputatlar, iqtisadçı ekspertlər də ölkəmizin mövqeyinin irəliləməsini Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu siyasətə verilən yüksək beynəlxalq qiymət kimi dəyərləndirirlər.*





### Hər bir ölkənin iqtisadi uğuru orta və kiçik sahibkarın qazancıdır

**Milli Məclisin deputatı Asim Mollazadə**nın fikrincə, Prezident İlham Əliyevin iqtisadiyyatımızı yüksək səviyyəyə qaldırmaq üçün atdığı addımlar öz nəticəsini verir. Beynəlxalq reytinq təşkilatları, agentlikləri Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları müsbət dəyərləndirirlər.

Deputatın sözlərinə görə, vergi sistemində, eləcə də qanunvericilikdə müvafiq iş adamlarının daha sərbəst fəaliyyəti üçün yaradılan hüquqi baza öz mühüm töhfəsini verib: "Bununla yanaşı, dövlət strategiyasında, iqtisadi islahatlar xəritəsində kiçik sahibkarın irəliləməsi üçün daha yaxşı imkanlar nəzərdə tutulub. Bütün bunlar ölkə əhalisinin rifahının yüksəldilməsi, qeyri-neft sektorunun inkişafı üçün atılan mühüm addımlardır. Ümidvaram ki, bu istiqamətdə fəaliyyətimiz daha da genişlənəcək".

Asim Mollazadə düşünür ki, hər bir ölkənin iqtisadi uğuru məhz orta və kiçik sahibkarın qazanclarıdır. Son illərdə sahibkarlığın inkişaf etdirilməsi sahəsində dövlətin həyata keçirdiyi islahatlar nəticəsində mühüm nailiyyətlər əldə edilib.

### Dövlətin həyata keçirdiyi islahatların, iqtisadi modelin qiyməti

**Deputat Rüfət Quliyev** də təsdiqləyir ki, Azərbaycanın bir il ərzində 57-ci yerdən irəliləyərək 25-ci yerə yüksəlməsi böyük nailiyyət kimi qiymətləndirilməlidir.

Bu nəticə bir daha Azərbaycanda uğurlu sosial-iqtisadi modelin həyata keçirildiyini təsdiqləyir: "Ölkəmizdə hər bir sahədə islahatların aparılması, onların konkret nəticələr verməsi beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Hesabatda göstərdiyimiz nəticə dövlətin həyata keçirdiyi islahatların, uğurlu iqtisadi modelin qiymətidir. Son iki il ərzində kiçik və orta biznesin inkişafı üçün kifayət qədər islahatlar həyata keçirilib. Prezident İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, bu yolda işlər davam etdiriləcək. Düşünürəm ki, kiçik və orta sahibkarlar gerçəkləşdirilən bu islahatların bəhrəsini hələ çox görəcəklər".

Rüfət Quliyev qeyd edib ki, Azərbaycan sahibkarları indi yaranmış əlverişli mühitdən istifadə edərək ticarət müharibələri nəticəsində sanksiya qurbanı olan ölkələrə daha çox məhsul ixrac etməyi qarşılarına məqsəd qoymalıdırlar: "Ümidvaram ki, sahibkarlar onlara yaradılmış bu imkanlardan faydalanaraq daha aktiv olacaqlar. Gələn il ən azından ilk onluğa yaxınlaşmaq üçün daha çox işləmək lazımdır".

Son olaraq qeyd edək ki, ölkəmizin beynəlxalq reytinqlərdə təsdiqlənən inkişafını şərtləndirən mühüm amillər var və bunlar düşünülmüş, gələcəyə hesablanan məqsədyönlü siyasi strategiyaya söykənir.

*Fərizə ƏHMƏDOVA,*
*"Azərbaycan"*

# İlham Əliyevin inkişaf strategiyası qlobal miqyasda təqdir olunur

## "Doing Business 2019" hesabatı Azərbaycanda həyata keçirilən islahatlara verilən yüksək beynəlxalq qiymətdir

*Əvvəli 1-ci səh.*

"Doing Business 2019" hesabatında deyilir: "Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib" ("DOING BUSINESS 2019" - Training for Reform", World Bank Group, page 13). Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

"Doing Business" hesabatı biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. "Doing Business" komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

Bu hesabat həm də xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda ("Qlobal Rəqabətlilik Hesabatı", "Qlobal İnnovasiyalar İndeksi", "İqtisadi Azadlıq İndeksi", "Qlobal İmkanlar İndeksi" və s.) baza rolunu oynayır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan "Doing Business 2019" hesabatına əsasən, daşınmaz əmlakın qeydiyyatında 4 pillə irəliləyib

*Əvvəli 1-ci səh.*

2019-cu il üçün tərtib edilən hesabatda bildirilir ki, Azərbaycan mülkiyyət hüququnun qeydiyyatı ilə bağlı prosedurların sayının azlığına, müddətin qısalığına və qeydiyyat xərclərinin azlığına görə dünyanın və MDB-nin əksər ölkələrindən irəlidədir.

"Doing Business 2019" hesabatına əsasən, Azərbaycanda əmlakın qeydiyyatı üçün cəmi 3 prosedurdan keçmək tələb olunur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) daxil olan ölkələr üzrə bu, 4,7, Avropa və Mərkəzi Asiya regionunda isə 5,3 təşkil edir. Bu göstəriciyə görə, ölkəmiz Polşa, Rumıniya və Bolqarıstan kimi inkişaf etmiş ölkələri qabaqlayır.

Digər tərəfdən, "Doing Business 2018" hesabatına əsasən, ölkəmizdə qeydiyyat üçün 5,5 gün tələb edilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) daxil olan ölkələr üzrə bu müddət 20,1 gün, Avropa və Mərkəzi Asiya regionu üçün isə 20,3 gün təşkil edir. Başqa sözlə, Azərbaycanda əmlakın qeydiyyatı müddəti Avropa üzrə ümumi göstəricidən 4 dəfə daha sürətlidir.

Azərbaycan əmlakın qeydiyyatı zamanı tələb olunan xərclərin azlığına görə də dünya və Avropa ölkələrinin əksəriyyətini qabaqlayır. Hesabata əsasən, Azərbaycanda əmlakın qeydiyyatına çəkilən xərclərin məbləği əmlakın ümumi dəyərinin cəmi 0,1 faizini təşkil edir. Qeyd edək ki, İƏİT ölkələri üzrə bu göstərici əmlakın dəyərinin 4,2 faizi qədər, Avropa və Mərkəzi Asiya regionu üçün isə 2,6 faizini təşkil edir.

30 ballıq şkala ilə qiymətləndirilən torpaq idarəetmə sisteminin keyfiyyət göstəricisinə görə ölkəmiz 17,5 bal toplayıb. Bu onu göstərir ki, ölkəmizdə bu sahədə infrastrukturun etibarlılığı, məlumatların "şəffaflığı" təmin edilib, coğrafi əhatə dairəsi genişləndirilib, torpaq mübahisələrinin həlli mexanizmləri təkmilləşdirilib və əmlaka sahib olma imkanları artırılıb. Müqayisə üçün qeyd edilməlidir ki, İƏİT ölkələri üzrə bu göstərici 23, Avropa və Mərkəzi Asiya regionu üzrə isə 19,6 təşkil edir.

"Doing Business 2019" hesabatında Azərbaycanın əldə etdiyi yüksək göstəricilər əmlakın qeydiyyatının sadələşdirilməsinin, vətəndaş amilinin gücləndirilməsi, o cümlədən sosial kampaniyaların keçirilməsi, intensiv elektronlaşmanın tətbiq edilməsinin nəticəsidir. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən daşınmaz əmlakın qeydiyyatı üzrə 26 elektron xidmətin istifadəyə verilməsi, çıxarışların verilmə müddətinin 1 iş günü müddətinədək azaldılması, o cümlədən elektron çıxarış sisteminin tətbiq edilməsi, arxivləşdirilmənin elektron qaydada həyata keçirilməsi vətəndaş məmnunluğunun artmasına imkan verib. Elektron çıxarışın tətbiqi təkrar qeydiyyat sahəsində prosedurları tam olaraq avtomatlaşdırıb. Bundan başqa, "Əmlakın qeydiyyatı kalkulyatoru" daşınmaz əmlakların sənədləşdirilməsi prosesində dövlət rüsumu və xidmət haqqının əvvəlcədən öyrənilməsinə, xərclərin öncədən hesablanmasına və vaxt itkisinin aradan qaldırılmasına şərait yaradıb. Komitənin onlayn xidmətləri də bu sahədə rahatlığı və operativliyi kifayət dərəcədə artırıb.

Qeydiyyat xidmətlərini vətəndaşa daha yaxın edən yeni sosial layihə "Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol", eləcə də "Kütləvi çıxarış" kampaniyası əhalinin bütün təbəqələrini əhatə edir.

# Naxçıvan Beynəlxalq Hava Limanına yeni maşın-mexanizmlər və xidməti avtomobillər verilib

Muxtar respublikada hava nəqliyyatının inkişafı diqqət mərkəzində saxlanılır, Naxçıvan Beynəlxalq Hava Limanının maddi-texniki bazası gücləndirilir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 2-də Naxçıvan Beynəlxalq Hava Limanına yeni maşın-mexanizmlər və xidməti avtomobillər təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov maşın-mexanizmlərə və xidməti avtomobillərə baxıblar.

Qeyd olunub ki, Naxçıvan Beynəlxalq Hava Limanının nəqliyyat infrastrukturunun möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər bu il də davam etdirilib, hava limanına 25 adda 30 yeni texnika və avtomobil alınıb. "Skymark" markalı yanacaqvuran, "Man" markalı yanacaqdaşıyan və yanğınsöndürən, "Mercedes" markalı xüsusi təyinatlı qartəmizləyənlər, "Schmidt" markalı yolsüpürən, "Trepel" markalı yükləyici maşınlar, təyyarə yedəkləri, yüksəldici platforma, "Trepel" markalı təyyarəçəkən, "Sherpa" markalı 4 tonluq baqajçəkmə traktorları, yükqaldıran maşınlar və digər mexanizmlər yüksək texniki göstəricilərə malikdir. "Mercedes Sprinter" markalı 2 mikroavtobus, "Fiat Doblo", "Nazlifan" və "Mitsubishi" markalı minik avtomobilləri də işçi heyətin rahat hərəkətini təmin edəcəkdir.

Müasir infrastrukturun yaradılması, yeni maşın-mexanizmlərin və avtomobillərin alınması istənilən hava şəraitində xidmətin rahat və təhlükəsiz təşkilinə imkan verəcəkdir.

### Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağı inşa olunur

Coğrafi cəhətdən əlverişli mövqedə yerləşməsi, müasir inkişafı və turizm potensialı Naxçıvan Muxtar Respublikasında hava nəqliyyatına olan tələbatı artırır, mülkü aviasiya sahəsində müasir infrastruktur yaradılır. Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni uçuş-enmə zolağının inşası da bu sahədə görülən işlərin davamıdır.

Noyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağında aparılan tikinti işləri ilə maraqlanıblar.

Məlumat verilib ki, uçuş-enmə zolağının uzunluğu 3300, eni isə 60 metrdir. Hazırda ərazidə torpaq işləri görülür. Tikinti işləri aparılarkən texniki tələblərə tam əməl olunur. Ərazidə yağış və qrunt sularının axıdılması üçün drenaj və kollektorlar qazılıb. Hazırda uçuş-enmə zolağının torpaq qatı bərkidilir, mühəndis-kommunikasiya xətləri çəkilir, yanğın nəzarət qülləsi inşa olunur. Müasir tələblər səviyyəsində tikilən uçuş-enmə zolağına keyfiyyətli asfalt-beton örtük salınacaqdır.

Yeni uçuş-enmə zolağı istifadəyə verildikdən sonra Naxçıvan Beynəlxalq Hava Limanında yük və sərnişin dövriyyəsinin həcmi artacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinin keyfiyyətlə aparılması, eləcə də aviasiya təhlükəsizliyi ilə bağlı tələblərə əməl edilməsi barədə müvafiq tapşırıqlar verib.

# Sülhün nəbzi Bakıda döyünür

*Əvvəli 1-ci səh.*

VI Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi eyni zamanda onu göstərir ki, doğrudan da Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir.

Bu il dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edən Azərbaycan müstəqilliyinin ilk illərində çox ağır və faciəvi tarixi reallıqlarla üzləşdi. Siyasi və iqtisadi böhran, daxili qüvvələrin çəkişməsi və Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti böyük faciələrə səbəb oldu, torpaqlarımızın 20 faizi işğal edildi, erməni hərbi quldur birləşmələri tərəfindən etnik təmizləmə siyasəti aparıldı. Bir milyondan çox azərbaycanlı yurd-yuvasından didərgin düşdü. Bu gün Şərq ölkələrində, ərəb dünyasında baş verən bu tipli münaqişələr ona səbəb oldu ki, ən qədim tarixə, böyük mədəniyyətə malik bir sıra ərəb ölkələri bu daxili və xarici təzyiqlər nəticəsində müharibələrin girdabına yıxıldılar, dünyada gedən siyasi proseslərə hər hansı bir təsir göstərmək imkanlarını itirdilər. Daxili və xarici düşmənlərin aramsız zərbələrindən sarsılaraq şirnikləndirici "ərəb baharı"nın qurbanlarına çevrildilər.

Faktiki olaraq Azərbaycana da belə bir aqibət hazırlanmışdı. Daha doğrusu, hadisələrin xaotik inkişafı, proseslərin nəzarətdən çıxması dövlətimizi çökdürməli idi. Lakin ulu öndərin xalqın tələbi ilə hakimiyyətə qayıdışı, iqtidar-xalq birliyinin qırılmaz bağlılığı, hətta belə ağır qarşıdurmalara baxmayaraq, unikal Azərbaycan modeli yaratmağa və ölkənin sürətlə inkişaf etməsinə imkan verdi.

Beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilən "Bakı prosesi"nin 10 illiyini qeyd edən Azərbaycan hələ 10 il bundan əvvəl Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini də dəvət etdi. Şərqlə Qərb arasında münasibətlərin yeni modelini ortaya qoydu. İlk dəfə olaraq 100-dən çox ölkənin nümayəndələri - müsəlman aləmini və Avropanı təmsil edən vəzifəli şəxslər Azərbaycan paytaxtında bir araya gələrək humanitar məsələlərin, mədəniyyət və dinlərarası münasibətlərin birgə müzakirəsinin mümkünlüyünü sübut etdilər. Aradan bir il keçdikdən sonra Bakıda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə keçirilən tədbirdə Avropa nümayəndələri iştirak etdilər. Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına üzv dövlət kimi sivilizasiyalararası dialoqa bu gün də öz töhfəsini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumdakı çıxışında məhz buna görə "Bakı prosesi"nin artıq beynəlxalq müstəvidə çox önəmli bir təşəbbüs kimi qiymətləndirildiyini diqqətə çatdırdı: "Bu təşəbbüs nəticəsində müxtəlif görüşlər, tədbirlər keçirilmişdir ki, bütün bunların bir məqsədi var: sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın. Eyni zamanda, Azərbaycanda keçirilmiş mötəbər idman yarışları da idman yarışları olsalar da, eyni zamanda humanitar əməkdaşlığın dərinləşməsinə xidmət göstərir. Mən xüsusilə I Avropa Oyunlarını və İslam Həmrəyliyi Oyunlarını qeyd etmək istərdim. Hesab edirəm, o da çox rəmzi məna daşıyır ki, ilk Avropa Oyunları bizim təşəbbüsümüzlə Azərbaycanda keçirilmişdir. Hesab edirəm, bu, çox əlamətdar hadisə, əlamətdar qərardır ki, ilk Avropa Oyunları müsəlman ölkəsində keçirilmişdir. Ondan iki il sonra - 2017-ci ildə Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir".

Dövlət başçısı eyni zamanda narahatlığını da bildirdi ki, xüsusilə indiki şəraitdə həm müsəlman aləmində, həm Avropada multikulturalizmlə, islam həmrəyliyi ilə bağlı gedən proseslər müəyyən mənada narahatlıq doğurur. Məhz buna görə Bakı Beynəlxalq Humanitar Forumunun ənənəvi olaraq keçirilməsinə dünya birliyi tərəfindən yüksək qiymət verilir, belə tədbirlərə dünyanın daha çox ehtiyac duyduğu dilə gətirilir.

Azərbaycanın dünyada gedən sülh proseslərinə verdiyi töhfələrin siyahısı sadaladıqlarımızla bitmir. Öz müstəqilliyini qətiyyətlə qoruyan ölkəmiz regionda və beynəlxalq aləmdə sülhün, əmin-amanlığın qorunması üçün ciddi addımlar atır. Bakının Şərqin Cenevrəsi kimi tanınması, neytral ölkə kimi böyük güclərinin danışıqlarının Azərbaycan paytaxtında keçirilməsi bir daha onu təsdiq edir ki, dövlətimiz bütün dünyaya, xristian və islam aləminə örnək ola bilən yeni münasibətlər modelini formalaşdırmaqdadır.

Əslində bütün dünyanın qəbul və təqdir etdiyi Azərbaycan tolerantlığı, müxtəlif dinlərin, xalqların nümayəndələrinin bir ailə kimi əmin-amanlıq, mehribanlıq şəraitində yaşaması onu sübut edir ki, atəşpərəstlikdən xristian dininə keçən və islamda təşəkkülünü tapan ölkəmiz bütün dinlərə açıqdır. Məscidlərin, katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası, tikintisi və fəaliyyətini davam etdirməsi Azərbaycanda unikal multikultural mühit yaradır. Məhz bu multikultural dəyərlərin inkişafı, bütün dünyaya açıq olmağımız bizə imkan verir ki, yeni dünyanın və yeni insani münasibətlərin formalaşması üçün fərqli münasibətlər modelini dünyaya təqdim edək.

BMT Baş katibinin müavini Rəşid Xalikov forumdakı çıxışında ötən ilin iyul ayında BMT-nin Baş katibinin söylədiyi fikirləri bir daha xatırladı ki, paradoksal vəziyyətin mahiyyəti ondan ibarətdir ki, problemlər və çağırışlar get-gedə daha qlobal xarakter alır və onların hər hansı ölkə tərəfindən təkbaşına həll edilməsi mümkün deyil. Qlobal cavabları çoxtərəfli idarəçilik formalarında axtarmaq lazımdır.

BMT Baş katibinin müavini VI Beynəlxalq Bakı Humanitar Forumunu olduqca mühüm məsələləri müzakirə edən tədbir kimi qiymətləndirdi. O, dünyadakı humanitar vəziyyət barədə məlumat verdi ki, 2018-ci ildə 134 milyon insan qlobal səviyyədə humanitar yardıma ehtiyac duyur. Böhrana məruz qalmış insanları dəstəkləmək üçün 25,3 milyard ABŞ dolları lazımdır. Münaqişələr qaçqınların sayının artmasına, onların daha uzun müddətdə öz doğma ölkələrindən uzaqda qalmasına səbəb olur: "Livan, Türkiyə və İordaniya öz əhalisinin sayına nisbətdə böyük sayda qaçqınlar qəbul ediblər. Kamerun, Çad, Sudan və Uqanda kimi ən az inkişaf etmiş ölkələrdə 4,9 milyon qaçqın var. Yəni bu, qlobal qaçqın sayının 28 faizini təşkil edir". Natiq onu da bildirdi ki, BMT Azərbaycan Respublikasının qlobal səviyyədə humanitar yardım göstərən nəzakətli addımlarını alqışlayır.

Məhz bu baxımdan VI Bakı Beynəlxalq Humanitar Forumunun gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxladığını deyə bilərik. Bu forum dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyi yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verəcək və bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda dəyişikliklərin yaranmasına vəsilə olub. Elə buna görə də "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumu bütün dünya üçün örnək ola bilən unikal münasibətlər modelini formalaşdırmağa imkan verir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Əhalinin sosial müdafiəsi məşğulluğun təminatından keçir

## Sosial rifahın təminatında isə sosial infrastruktur önəmli rol oynayır



*Əvvəli 1-ci səh.*

Son zamanlar aqrar sektorda aparılan struktur islahatları, bir sıra ənənəvi kənd təsərrüfatı məhsullarının əkin sahələrinin genişləndirilməsi müsbət nəticələr verir. Təkcə pambıqçılığın inkişafı bölgələrdə 190 mindən çox iş yerinin açılmasını təmin edib. Bundan əlavə, baramaçılığın və yun istehsalının artması da yüngül sənayenin dirçəlməsinə imkan yaradıb. Məsələn, bu hesabla Mingəçevir Sənaye Parkında iki böyük iplik fabriki işləyir. Həmin müəssisələrdə 750 nəfər işlə təmin olunub. Yeri gəlmişkən qeyd edək ki, qarşıdakı illərdə bu parkda yeni müəssisələrin yaradılacağı və onların da xammal kimi yerli kənd təsərrüfatı məhsullarından istifadə edəcəyi nəzərdə tutulub.

Azərbaycanda ipəkçiliyin tarixi qədimdir. Ölkəmizdə istehsal edilən ipək məhsulları uzun illər dünya bazarında satılıb. Bununla yanaşı, Asiyadan Avropaya daşınan ipək məhsullarının tranziti Azərbaycan üzərindən həyata keçirilib. Sovetlər dönəmində də Azərbaycanda ipək məhsullarının istehsalı davam edib. SSRİ kimi bir ölkədən ixrac olunan ipək məhsulları sırasında Azərbaycan ipəyinin özünəməxsus yeri olub.

Təəssüf ki, müstəqilliyimizin bərpasından sonra məlum səbəblər üzündən digər ənənəvi sahələrdə olduğu kimi, ipəkçilikdə də durğunluq dövrü yaşandı. Məsələn, 2015-ci ildə ölkə üzrə cəmi 236 kiloqram barama istehsal olunmuşdur. Lakin birbaşa dövlət başçısının təşəbbüsü ilə görülən tədbirlər bu sahəni də dirçəltdi. Nəticədə cari il 500 tondan çox barama tədarük edildi. Üstəlik, Şəki İpək Kombinatı fəaliyyətini bərpa etdi, müəssisədə işləyənlərin sayı artdı.

Məlum olduğu kimi, Azərbaycanda kiçik biznesə dəstək vermək məqsədilə xüsusi proqram hazırlanıb. Bu proqram çərçivəsində Ailə Biznesinə Asan Dəstək (ABAD) mərkəzləri yaradılır. Onların əsas xidmət dairəsi ailə və kiçik biznesə dövlət dəstəyi verməkdir. Hazırda bu proses ilkin mərhələdədir. Lakin qarşıya məqsəd qoyulub ki, bu sahənin fəaliyyəti genişləndirilsin, daha çox ailəyə və kiçik biznesə dəstək verilsin. Bu məqsədlə iri və özəl sektordan da dəstək gözlənilir. ABAD mərkəzlərinin fəaliyyəti gələcəkdə minlərlə iş yerinin açılmasına da təkan verəcək.

Amma iş yerlərinin sayı öz yerində, bu gün əhalini əməkhaqqının məbləği də az maraqlandırmır. Çox yaxşı haldır ki, bu sahə üzrə də ölkəmizdə dinamik artım müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-avqust aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 3,1 faiz artaraq 541,2 manat təşkil edib. Əməkhaqqı neft sektorunda 3083,4, qeyri-neft sektorunda 483,2 manat olub. Hesabat dövründə dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 429,3, özəl müəssisələrdə 692,6 manata çatıb. Ölkə əhalisinin nominal gəlirləri isə cari ilin 9 ayında keçən ilin müvafiq dövrünə nisbətən 9,5 faiz artaraq 3 milyard 969 milyon manata yüksəlib. Əhalinin hər nəfərinə düşən gəlirlər də az artmayıb - 8,5 faiz.

Qeyd edildiyi kimi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasının bir yolu da sosial infrastrukturun yenidən qurulmasıdır. Məhz bu siyasət sayəsində ölkə üzrə qazlaşdırılma 94 faizə çatıb. İlin sonunadək bu rəqəmin 95 faizə çatması nəzərdə tutulub. Bununla yanaşı, bölgələrdə dövrün tələblərinə cavab verən elektrik, su xətləri çəkilib, yüzlərlə yeni məktəb binası, xəstəxanalar və digər sosial obyektlər tikilərək istifadəyə verilib.

Bu sırada məcburi köçkünlərin problemlərinin həlli də unudulmur. Həmin kateqoriyadan olan vətəndaşlarımızın sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə bu vaxta qədər 100-dən çox şəhərcik salınıb. Təkcə cari ildə Qobu qəsəbəsində 1000-dən çox mənzil tikilərək köçkünlərin ixtiyarına verilib, yəni 2900 məcburi köçkün ailəsi evli-eşikli olub. Sumqayıtda, paytaxtın Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Abşeron, Tərtər, Qaradağ rayonlarında da məcburi köçkünlər üçün yeni yaşayış binaları və evlər tikilir. Bu hesabla ilin sonunadək əlavə 2800 ailə evlə təmin ediləcək. Beləliklə, bu il 7500 ailə - təxminən 25 min məcburi köçkün təzə evə köçəcək.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Avropa çempionatında kempoçularımız ölkəmizi uğurla təmsil etdilər

## Qaliblər sırasında "AZƏRBAYCAN"ın əməkdaşı da var





Dünyanın ən qədim döyüş növlərindən biri də kempodur. Əslində kempo ənənələri yaşadan, mənəvi və fiziki mədəniyyəti öyrənən və öyrədən bir elmdir. Özündə bir çox döyüş növlərini cəmləşdirir.

Yaranması eramızdan əvvəl VI əsrə təsadüf edən kempo müasir dövrdə bir neçə istiqamət üzrə inkişaf edir. Buraya idman xarakterli, məsələn, boks, güləş, kikboksinq, cüdo və s. növlər, müxtəlif özünümüdafiə sistemləri, habelə ənənəvi döyüş növləri daxildir.

Ölkəmizdə kempo "Toğrul" idman klubunun adı ilə bağlıdır. 2010-cu ildə beynəlxalq federasiya Azərbaycanda səlahiyyətli nümayəndəsini təyin etmişdir. Bu, klubun prezidenti, üçqat dünya çempionu, beynəlxalq dərəcəli hakim, əməkdar məşqçi Rauf İbrahimovdur.

Digər idman növləri ilə yanaşı, kempo da ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Məhz bunun nəticəsində idmançılar beynəlxalq miqyaslı yarışlarda Azərbaycanı layiqincə təmsil edirlər.

Bu günlər Rumıniyanın paytaxtı Buxarestdə keçirilmiş növbəti XII Avropa çempionatı buna bir daha sübutdur. 21 ölkədən 600-ə yaxın idmançının qatıldığı həmin mötəbər yarışlarda ölkəmiz 8 idmançı ilə təmsil olunmuş və onlardan 5-i vətənə medalla qayıtmışdır.

Çempionatın ilk günü kempo submişn gi yarışlarında Fərid Əhmədov 70 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülmüşdür. Həmin versiya üzrə Aqil Cəfərzadə (95 kq) ancaq finalda məğlub olaraq gümüş medala sahib çıxmışdır. Daha bir uğuru isə "Azərbaycan" qəzetinin əməkdaşı Şakir Alıyev (86 kq) əldə etmişdir. O, Avropa çempionatının bürünc medalını qazanmışdır.

Yarışların növbəti günü kempo semi növündə Cəmşid Rüstəmov (95 kq) bütün döyüşlərini udaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Nokdaun versiyası üzrə isə 80 kq çəki dərəcəsində mübarizə aparmış Rüstəm Müslümov həlledici görüşdə uduzaraq ikinci yerlə kifayətlənmişdir.

Qeyd edək ki, bu Avropa çempionatı Beynəlxalq Kempo Federasiyasının Azərbaycandakı səlahiyyətli nümayəndəsi Rauf İbrahimov üçün də əlamətdar olmuşdur. Belə ki, o, kempo üzrə 5-ci dan kəmər ustası adına layiq görülmüşdür.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Qubada aztəminatlı ailələr üçün meyvə bağları salınıb

Noyabrın 2-də Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşəbbüsü ilə Quba rayonunda aztəminatlı ailələr üçün meyvə bağları salınıb.





AZƏRTAC xəbər verir ki, ağacəkmə aksiyası zamanı 2 hektar ərazidə 1000 ədəd alma tingi əkilib. Salınan meyvə bağları Quba rayonunda yaşayan üç aztəminatlı ailə arasında bölünərək onların təmənnasız istifadəsinə verilib. Həmin ailələr meyvə bağlarına qulluq göstərməklə becərilən məhsuldan gəlir əldə etmək və maddi rifahlarını yaxşılaşdırmaq imkanı qazanacaqlar.

Meyvə ağaclarının əkilməsi üzrə pilot layihəyə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ilin aprel ayında başlanılıb. Layihə çərçivəsində ilk meyvə bağı İsmayıllı, daha sonra Şəmkir, Ağstafa, Tovuz, Ağdaş, Qax, Lənkəran, Beyləqan, Sabirabad, Ağcabədi, Bərdə və Lerik rayonlarında salınaraq aztəminatlı ailələr, o cümlədən Qarabağ müharibəsi veteranı və şəhid ailələrinin istifadəsinə verilib. Layihənin sosial-iqtisadi əhəmiyyəti ondan ibarətdir ki, bu cür bağların salınması əhalinin rifahının yaxşılaşdırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı mallarının idxalından asılılığının azaldılmasına da töhfə verəcək.

Layihə çərçivəsində fındıq, nar, ərik, feyxoa, xurma, qoz, alma növlərindən olmaqla, ümumilikdə 15 minə yaxın meyvə ağacları əkilib və 44 aztəminatlı ailə meyvə bağları ilə təmin edilib.

Aztəminatlı ailələr üçün meyvə bağlarının salınması layihəsi çərçivəsində ağacəkmə aksiyaları noyabr ayı ərzində İmişli, Qazax, Qəbələ və Göygöl rayonlarında da təşkil olunacaq.

Quba rayonunda meyvə bağlarının salınması üzrə təşkil edilən aksiyalara ümumilikdə 200 nəfərdən çox yerli gənc könüllü olaraq qoşulub.

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR



### İtaliyada 12 nəfər tropik qasırğasının qurbanı oldu

İtaliyada tropik qasırğanın törətdiyi daşqınlar və torpaq sürüşmələri nəticəsində 12 nəfər həlak olmuşdur. Bu barədə ANSA agentliyi xəbər verir.

Məlumata görə, beş gündür ölkənin əksər regionlarında davam edən təbii fəlakətdən daha çox Liquriya rayonu zərər çəkmişdir. Küləyin sürəti saatda 180 kilometrə çatmışdır. Rayonda 20 mindən çox adam işıqsız qalmışdır. Ölkənin şimal-şərqində yerləşən Venesiya şəhərinin quru sahəsinin 75 faizini su basmışdır.

Ölənlər arasında bir yanğınsöndürən də var. Bundan əlavə, Türkiyədəki internet saytlarından birinin rəhbərinin İtaliyanın cənub-şərqində yerləşən Kalabriya rayonunda itkin düşdüyü bildirilir.

### Ərəb koalisiyası Yəməni bombaladı



Səudiyyə Ərəbistanının başçılıq etdiyi ərəb koalisiyası Yəmənin paytaxtı Sənanın beynəlxalq hava limanının yaxınlığında yerləşən aviasiya bazasına 30-dan çox zərbə endirmişdir. Bu barədə TASS agentliyi xəbər verir.

Koalisiyanın rəsmi nümayəndəsi Turki Malikinin dediyinə görə, Səna hava limanının ərazisindən və Dəlmi hərbi hava bazasından atılan ballistik raketləri və buraxılan pilotsuz təyyarələri məhv etmək üçün hərbi əməliyyat keçirilmişdir. Bütün hədəflərin vurulduğu bildirilir. Dağıntılar və mümkün tələfat barədə məlumat verilmir. Bombardman zamanı hava limanındakı təyyarələrə ziyan dəyməmişdir. BMT-nin və humanitar təşkilatların təyyarələri təqvim üzrə uçuşlarını davam etdirir.

### Son 10 ildə 2 milyard nəfər təbii fəlakətlərdən zərər çəkib



Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Assosiasiyaları Federasiyasının (IRFC) hesabatına görə, son on ildə dünyada baş vermiş təbii fəlakətlər nəticəsində 2 milyard nəfərdən çox adam zərər çəkmişdir.

Dünya əhalisinin 95 faizi təbii kataklizmlərin mənfi fəsadları ilə üzləşir. 2008-2017-ci illərdə təbii fəlakətlər ucbatından 700 min nəfərdən çox adam həlak olmuşdur. Ölənlərin yarısı zəlzələ qurbanıdır. Hesabatda deyilir ki, son 10 ildə dünyada 3751 təbii fəlakət, o cümlədən daşqınlar, qasırğalar və yanğınlar baş vermişdir. Bu faciəvi hadisələrdən dəyən ziyan təqribən 2 trilyon dollar təşkil etmişdir. Daşqınlardan və sellərdən 730 milyon nəfərə yaxın adam zərər çəkmişdir. Məhz bu hadisələr Yer üzündə baş vermiş bütün təbii fəlakətlərin yarısını təşkil edir. Digər yarısı isə qasırğalar, quraqlıq, torpaq sürüşmələri, yanğınlar, zəlzələlər və vulkan püskürmələrinə aiddir.

Hesabatda qeyd olunan müddətdə dünyada anomal istidən 87 milyon nəfərə yaxın adam zərər çəkmişdir. Təbii fəlakətlərdən ən çox Asiya ölkələri əziyyət çəkir. Ən böyük ziyan isə Amerika və Asiya ölkələrinə dəymişdir.

2018-ci ildə humanitar yardıma ehtiyacı olan adamların sayı 134 milyon nəfərə çatmışdır.

### ABŞ Dövlət Departamenti səudiyyəli jurnalistin cəsədini tələb edir




ABŞ səudiyyəli jurnalist Camal Qaşıqçının qətlinin təkcə icraçılarının deyil, həm də bu cinayətdə əli olanların məsuliyyətə cəlb edilməsini tələb edəcək. Bu barədə Dövlət Departamentində keçirilmiş brifinqdə ABŞ dövlət katibinin müavini Robert Palladino bildirmişdir.

Bundan əlavə, Palladino qeyd etmişdir ki, jurnalistin cəsədinin yeri tezliklə müəyyənləşdirilməli və dəfn olunmaq üçün qohum-əqrəbasına təhvil verilməlidir.

"Washington Post" qəzeti ilə fəal əməkdaşlıq etmiş Camal Qaşıqçı ötən ayın 2-də Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğunun binasında öldürülmüşdür. Türkiyə Baş Prokurorluğu apardığı təhqiqatın gedişində jurnalistin planlaşdırılmış qətlin qurbanı olduğu qənaətinə gəlmişdir. Qaşıqçı diplomatik missiyanın binasına daxil olduqdan dərhal sonra onu boğmuşlar. Bundan sonra jurnalistin meyiti doğranmış və məhv edilmişdir.

### Bolton "istibdad üçlüyü" ölkələrini açıqladı



ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton Kuba, Venesuela və Nikaraquanı "istibdad üçlüyü" və "sosializmin əlaltıları" adlandırmışdır. Bu barədə "Vox" qəzeti xəbər verir.

Bolton Mayamidə çıxışı zamanı bildirmişdir ki, "Havanadan Karakasa və Manaquaya kimi uzanan bu istibdad üçlüyü, bu terror üçbucağı böyük insan əzablarının səbəbidir". Onun dediyinə görə, yaxın vaxtlarda Latın Amerikasının adıçəkilən üç ölkəsinə qarşı sanksiyalar tətbiq olunacaq və təzyiq artırılacaq.

Bundan əvvəl Vaşinqton insan hüquqlarının pozulması və korrupsiya ilə əlaqədar Venesuelaya qarşı sanksiyalar tətbiq etmiş, o cümlədən qızıl ehtiyatı ilə aparılan əməliyyatları bloklamış, habelə 21 nikaraqualı məmurun vizasını ləğv etmişdir. Kubaya gəlincə isə, ABŞ-ın tətbiq etdiyi iqtisadi, ticarət və maliyyə blokadası artıq 55 ildir qüvvədədir.

*Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi 19 noyabr tarixdə ATƏT-in keçmiş rəhbəri cənab Mario Rafaellinin iştirakı ilə keçiriləcək "İşğal olunmuş ərazilərdə qanunsuz iqtisadi fəaliyyət" adlı konfransın təşkili ilə əlaqədar iş və xidmətlərin* ***təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir***

Maraqlanan təşkilatlar (012) 569-08-50 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 7 noyabr 2018-ci il tarixinədək qəbul olunur.
**AZ10005, Bakı şəhəri, M.İbrahimov küçəsi, 8**

***Tender komissiyası***

**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində 16 oktyabr 2018-ci il tarixdə keçirilmiş "Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqlara diqqət və qayğının artırılması məqsədi ilə təbliğat kampaniyasının təşkili" adlı təkrar müsabiqənin qalibi "ROYAL EVENTS" MMC olmuşdur.

***Tender komissiyası***

***Yasamal rayonu M.N.Tusi adına 173 nömrəli tam orta məktəb tərəfindən 2008-ci ildə Kərimov Nicat Valeh oğluna verilmiş A 697713 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Quba Rayon Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Xəqani Tağıyeva bacısı
**ULDUZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya əzizi
**ALİM BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami Rayon Məhkəməsinin kollektivi Quba Rayon Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Xəqani Tağıyeva bacısı
**ULDUZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovaya və Dövlət mükafatı laureatı Aqil Babayevə əzizləri
**ALİM İSA OĞLU BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məhərrəm Səfərli veteran, əməkdar jurnalist
**OQTAY CƏFƏROVUN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Salyan Rayon Məhkəməsinin sədri Əlövsət Paşayev və məhkəmənin kollektivi Quba Rayon Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Xəqani Tağıyeva bacısı
**ULDUZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ombudsman Elmira Süleymanova Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədovaya əzizi
**ALİM BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Biznes Universitetinin rektorluğu və professor-müəllim heyəti Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovaya əzizi
**ALİM BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Biznes Universitetinin rektorluğu və professor-müəllim heyəti Azərbaycan Memarlıq və İnşaat Universitetinin tədris işləri üzrə prorektoru Akif Qasımova anası
**ZALMI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8427
Sifariş 3197